


# Azərbaycan XİN-dan Ermənistana cavab

*"Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycanı 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatı pozmaqda ittiham edən 11 avqust 2021-ci il tarixli bəyanatı Ermənistan Respublikasının üçtərəfli sənədin müddəalarına tam riayət etmək öhdəliklərindən boyun qaçırmağa yönəlmiş növbəti uğursuz cəhdidir". Bu barədə Unikal.org-a Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib.*

Səh.3

UNİKAL

№29 (2067) 13 avqust 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru



# Elmar Məmmədyarov xof içində...



Səh.2

# Regionda təhlükəli oyun qurulur

## XİN-in sabiq başçısının "korrupsiya aparatı" ifşa edilir

*Yola salmaq üzrə olduğumuz həftənin diqqətçəkən hadisələrindən biri Bakı Ağır Cinayətlər Məhkəməsində Xarici İşlər Nazirliyinin (XİN) İşlər İdarəsinin sabiq müdiri Fərhad Mollazadə ilə nazirliyin Konsulluq idarəsinin vəzifəli şəxsi Səlim Əlizadənin cinayət işi üzrə məhkəmə prosesinin başlaması oldu. Prosesdə dövlət ittihamçısı ittiham aktını elan edib. İttiham aktı kifayət qədər ilginc nüanslarla zəngindir. Belə ki, sənəddən məlum olduğuna görə, F.Mollazadə S.Əlizadə və digərləri ilə əlbir olaraq müxtəlif firmalar vasitəsilə nazirlik üçün hədiyyələr, dəftərxana ləvazimatları, suvenirlər və s. alınması məqsədilə ümumilikdə 2 milyon 543 min 173 manat vəsaiti mənimsəyiblər. Mənimsənilən vəsaitlər tenderlərdə süni şəkildə qalib elan edilməsi yolu ilə həyata keçirilib. Bu isə məhkəmə prosesinin xüsusilə XİN-in keçmiş başçısı Elmar Məmmədyarov...*

Səh.5

## "Azərbaycanın imicinə ləkə salmağa çalışırlar"



*Son günlər ərzində Ermənistanın üçtərəfli bəyanatı kobud şəkildə pozaraq öz silahlı qüvvələrinin şəxsi heyətini Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə daşıması, Muxtarkənd, Şuşakənd məntəqələri yaxınlığında, eləcə də Kəlbəcər və...*

Səh.4

## Əbülfəs Qarayevin həbs edilən dostu...



*Xaçmaz rayonu Nabran qəsəbəsində yerləşən "Atlant" İstirahət və Əyləncə mərkəzində epidemiya əleyhinə karantin rejiminin kobud şəkildə pozulmasına görə mərkəzin rəhbəri Tahir Qədəşov, onun qohumu Azər Qədəşov və xidmətin personalı saxlanılıb. 2000-ci ildən turizm sahəsində fəaliyyət göstərən T.Qədəşov...*

Səh.8

## Təhsil Tələbə Krediti aztəminatlı ailələrə ali təhsili əlçatan edəcək



*Azərbaycanda 7 ildə 5 min tələbə təhsil haqqını ödəyə bilmədiyinə görə universitetlərdən xaric edilib. Bu rəqəm ölkəmizdə tələbələrin təhsil haqlarının ödənilməsinə dəstək mexanizmləri üzərində düşünməyə kifayət qədər əsas verirdi. Elə bu günlərdə baş nazir Əli Əsədovun təsdiq etdiyi "Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası"...*

Səh.11

# "Qısqanmaq, paxıllıq etmək lazım deyil" - Aysel Əlizadə



***"Bu həyatda hər kəs öz yolunu gedir, öz yarışını oynayır zamanında. Hər şey çox tərəfli və bir mənalı deyil. Fərq zamandadır".***

Bu sözləri müğənni Aysel Əlizadə sosial şəbəkə paylaşımında yazıb. Aysel dostluq münasibətlərindən bəhs edib:

"Dərindən düşünsək, bu dünyada hər hadisənin öz saat qurşağı var. Dostlarınız sizdən öndə ola bilər. Kimisi isə çox geridə qala bilər. Bu çox təbiidir. Hər insanın bu saat qurşağında öz distansiyası var! Qısqanmaq, paxıllıq etmək, müqayisə etmək lazım deyil".

# "Natavana qarşı sevgim qalmayıb" - Dado



***Dado ləqəbli tanınmış repçi Səid Əliyev müğənni Natavan Həbibi ilə münasibətlərinin tamamilə bitdiyini etiraf edib.***

O, bu barədə "Abşeron Maqazin" proqramına açıqlamasında bildirib. Repçi ailəsinin dağılmasında səbəbkar kimi kənar şəxslərin müdaxilə etməsini göstərib: "Problem Natavanla mənim aramda deyil. Başqa məsələlərdir. Elə bir problemdir ki, onu danışmaq kişiliyə yaraşan şey deyil. Həyat belə gətirdi. Natavana qarşı heç bir kinliliyim yoxdur. O, xanım mənə pis heç nə etməyib. Çox uzun müddətdir susurduq. Boşandığımızı uşağa görə heç kimə demirdik. Amma bu susqunluq çox şeyə səbəb ola bilərdi. Bu səbəbdən mən boşandığımızı instaqram səhifəmdə qeyd elədim.

Bəli, 1 ilə yaxındır ki, aramızda heç bir münasibət yoxdur. Ona qarşı sevgim qalmayıb. Evlənəndə hər şeyə eyni baxırdıq. Sevgini sındırmağa nə var ki? Geri dönmək fikrim də yoxdur. Bu haqda ilk dəfə danışıram, insanlar deyir ki, Dado Natavanın sayəsində gündəmə gəldi, pul qazandı. Əgər mən Natavanın hesabına gündəmə gəlsəydim indi maddi imkanım daha yaxşı olardı, maşınımı dəyişərdim. Elə bir şey yoxdur. Mən evlənmək fikrində deyildim. Sadəcə Natavanla eyni sənəti bölüşdüyümüz üçün ailə həyatı qurduq. Fikirləşirdik ki, bir-birimizi başa düşəcəyik. Amma olmadı".

Dado oğluna olan sevgisindən də danışıb: "Boşansaq da uşaqla görüşürəm. Əvvəllər daha tez-tez görürdüm. İndi az görüşürük. Məni bu həyatda tutan oğluma olan sevgimdir. Ata olduğum üçün çox xoşbəxtəm. Ana-atamı nənə baba etdiyim üçün sevinirəm".

Qeyd edək ki, cütlük 2017-ci ildə ailə qurub. Onların bu nikahdan Zeyd adlı bir oğlan övladı var.



# "Aygün bir çox xalq artistindən yaxşı oxuyur" - Kənan M.M

***Rejissor və aktyor Kənan M.M "Üzə-düz" proqramına qonaq olub.***

Unikal.org xəbər verir ki, o, şəxsi həyatı ilə bağlı maraqlı açıqlamalar verib. Belə ki, Kənan həyat yoldaşı Aygünün Xalq artistlərindən belə yaxşı oxuduğunu deyib:

"Biz Aygünlə ailə həyatı quranda bilirdik kimikg Sonradan məşhurlaşmadıq. Ailə quranda heç kimdə nəsə dəyişmədi. Aygün bir çox Xalq artistindən yaxşı oxuyur. Sənət də vətən sevgisi kimi bir şeydir. Mən 100 dəfə də bu dünyaya gəlsəm, yenə özümü bu sənətdə görürəm".

# Nəsrin İstanbulda qalmaqal yaratdı

***Aktrisa Nəsrin Cavadzadə İstanbulda gərginlik yaradıb. N.Cavadzadə Nişantaşında müxbirlər tərəfindən bir vəkil ofisinin qarşısında maskasız görüntülənməsinə etiraz edib.***



Bildirilir ki, fotoqraflardan qaçan və binanın önündə gözləyən turistlərin arasında qalan aktrisa, əvvəlcə təşvişə düşüb. O, yenicə çıxdığı binaya geri dönmək istədikdə isə qapının bağlı olduğunu görüb və "Tez qapını açın",- deyərək içəridəkilərə səslənib. Cavadzadə bunun ardınca media nümayəndələrinə "O şəkilləri siləcəksiz, istəmirəm",- deyərək iradını bildirib. Belə aydın olub ki, aktrisa üzərinə qəhvə dağıdıb və qapıda yeni libas gözləyirmiş.

# Səmra məşhur yarışmadan imtina etdi

***Müğənni Səmra Rəhimli hər il keçirilən məşhur "Novaya valna" (Yeni dalğa) beynəlxalq müsabiqəsindən imtina edib.***

Sənətçi, əvvəlcə təşkilatçılara birbaşa finalda iştirak edəcəyini təsdiqləsə də, daha sonra yarışmanın onun formatına uyğun olmadığını bildirib.

S. Rəhimli "Novaya valna"da yer almayacağını qeyd edib. Xatırladaq ki, bu il finalçılarının seçimini musiqi prodüseri Anastasiya Muxina, müsabiqənin direktoru Aleksandr Revzin və münsiflər heyətinin sədri, Rusiyanın Xalq artisti İqor Krutoy edib. Beynəlxalq Musiqi Yarışması 19-25 avqust tarixlərində Soçidə keçiriləcək. Finalçılar arasında Avstraliya, Ermənistan, Belarus, Bolqarıstan, Gürcüstan, İspaniya, İtaliya, Niderland, Serbiya və Rusiya təmsilçiləri də yer alıb.

# Ərdağan azərbaycanlı səfiri qəbul etdi

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın burada diplomatik fəaliyyəti başa çatan fövqəladə və səlahiyyətli səfiri Xəzər İbrahimi qəbul edib.***

"Unikal" xəbər verir ki, X.İbrahim bu barədə tviter səhifəsində paylaşım edib.

"Qardaş Türkiyədə Azərbaycanın səfiri işlədiyim dönəmdə hər zaman dəstəyinizi və diqqətinizi hiss etdim. Türkiyədən ayrılmadan öncə də məni qəbul etdiyiniz üçün təşəkkür edirəm, Cənab Prezident!", - deyə X.İbrahim qeyd edib.

Qeyd edək ki, X.İbrahim Azərbaycanın ABŞ-dakı fövqəladə və səlahiyyətli səfiri vəzifəsinə təyin olunub.

# XİN Rusiyaya başsağlığı verib

***Azərbaycan Xarici İşlər Nazirliyi Rusiyada "Mİ-8" helikopterinin qəzaya uğraması ilə bağlı bu ölkəyə başsağlığı verib.***

"Unikal"ın xəbərinə görə, başsağlığı mətni nazirliyin tviter səhifəsində yayılıb.

"Kamçatkanın Kuril adaları bölgəsində "Mİ-8" helikopterinin qəzaya uğraması nəticəsində həlak olanların yaxınlarına və Rusiya xalqına dərin hüznlə başsağlığı veririk", - başsağlığında bildirilib.

# Nazirlik meşə yanğınlarının təbiətə vurduğu ziyanı açıqlayıb

***"Son günlər Azərbaycanda həm meşə, həm də şəhərdəki yaşıllıq sahələrində yanğın hadisələri baş verir. Bu yanğınların da böyük bir qismi insanların səhlənkarlığı, ehtiyatsızlığından irəli gəlir".***

"Unikal" xəbər verir ki, bunu Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəsmisi Hikmət Əlizadə bildirib.

O qeyd edib ki, Qəbələ və Oğuz rayonlarının meşə ərazilərində, eləcə də Bakı şəhərinin bir neçə ərazisindəki yaşıllıq sahəsində yanğın baş verib: "Təkcə Xətai rayonunun Vunq Tau küçəsində olan yanğın zamanı 45 şam ağacı yanıb, digər ağaclara isə ziyan dəyib. Aparılan hesablamalara görə yaşıllığa təxminən 40 min manat məbləğində ziyan dəyib.

Müşahidələr və araşdırmalar göstərir ki, şəhərdə yaşıllıq ərazilərində baş verən yanğınların bir qismi kommunal təsərrüfat işçilərinin təmizlik aparan zaman qurumuş otları, yarpaqları bir yerə toplaması və ona od vurmasıdır. İkinci əsas fakt isə söndürülməmiş siqaret kötüklərinin yaşıllıq ərazilərinə atılmasıdır".

H.Əlizadə bildirib ki, bu faktlar ciddi məsuliyyət yaradır və bununla bağlı aidiyyəti qurumlar tərəfindən araşdırmalar aparılır: "Vətəndaşlarımızdan xahiş edirik ki, odla ehtiyatlı davransınlar, min bir əziyyətlə ərsəyə gələn yaşıllıqların yanmasına səbəb olmasınlar. Çünki, hər birimizin cüzi ehtiyatsızlığı yanğınlara səbəb olur, ömrü 100 ildən artıq olan ağacların, yaşıllığın məhvi ilə bərabər, dövlətimizin büdcəsinə külli miqdarda ziyan dəyir".

# Prokurorluq Sabirabaddakı ölümlə bağlı araşdırma aparır

***Baş Prokurorluq Sabirabadda kanala düşən avtomobildə meyitin tapılması ilə bağlı araşdırma aparır.***

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, avqusun 11-i saat 10 radələrində Sabirabad rayonu ərazisində su kanalında Mirzəyev Elman Nizami oğlunun avtomobildə meyitinin aşkar edilməsi faktı ilə bağlı hazırda Sabirabad rayon prokurorluğunda araşdırma aparılır.

Prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, digər prosessual hərəkətlər yerinə yetirilib. Məhkəmə-tibb ekspertinin iştirakı ilə meyit müayinə olunarkən üzərində xəsarət və ya xəsarət izləri aşkar edilməyib.

# Əbülfəs Qarayevin həbs edilən dostu...

## "Atlanta"nın rəhbəri ilə sabiq nazirin əlaqələrinə dair yeni iddialar var

***Xaçmaz rayonu Nabran qəsəbəsində yerləşən "Atlant" İstirahət və Əyləncə mərkəzində epidemiya əleyhinə karantin rejiminin kobud şəkildə pozulmasına görə mərkəzin rəhbəri Tahir Qədəşov, onun qohumu Azər Qədəşov və xidmətin personalı saxlanılıb.***



2000-ci ildən turizm sahəsində fəaliyyət göstərən T.Qədəşov Azərbaycanda turizm sektorunda ən məşhur sahibkarlardan sayılır. Yerli KİV isə onun sabiq Mədəniyyət naziri Əbülfəs Qarayevlə yaxın dostluq münasibətlərinə diqqət çəkib. İddia edilir ki, sözügedən əyləncə mərkəzinin tikilib ərsəyə gəlməsində keçmiş nazirin də mühüm rolu olub. Hətta bəzi məqamlarda biznes ortağı olduğu da deyilir. Həmçinin obyektin əsl sahibinin sabiq deputat Nizami İsgəndərov olduğu bildirilir.

Əyləncə mərkəzi o vaxtkı Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərmanları ilə təltif edilib."Unikal" qəzeti bu mövzuda araşdırma aparıb və daha ilginc faktlar əldə edib. Belə ki, T.Qədəşovun keçmiş nazirlə yaxın münasibətlərinin olduğu, hətta bu münasibətlərin dostluq səviyyəsində davam etdiyi üzə çıxıb.

Məsələn, 2017-ci ildə rəsmi dövlət qəzetlərindən birinə "Xalq qəzeti") müsahibə verən T.Qədəşov maraqlı fikirlər səsləndirib. O bildirib ki, "Atlant" istirahət mərkəzi son illər tamamilə yenilənib.

Sitat: "Böyüklər və uşaqlar üçün yeni hovuzlar tikilib, akvaparklar inşa olunub. Altımərtəbəli 120 yerlik otel istifadəyə verilib. Bu gün "Atlant" kifayət qədər turist qəbul etmək imkanına malikdir.

Ərazisi 14.6 hektar olan "Atlant" istirahət və əyləncə mərkəzi ilin bütün fəsillərində turistləri qəbul etməyə hazırdır". Ardınca isə tanınmış sahibkar bu şəraitin yaradılmasında Əbülfəs Qarayevin dəstəyini hər zaman hiss etdiklərini bildirib.

T.Qədəşovun bunu deməsi təsadüf sayılmır. Məsələ burasındadır ki, obyektin ilk himayədarı sayılan Nizami İsgəndərov 2005-ci il parlament seçkilərində YAP-ın siyahısı ilə deputat mandatı əldə etsə də, 2010-cu ildə seçkidən kənarda saxlanılıb. Seçkidən sonra Milli Məclisin spikeri Oqtay Əsədov Nizami İsgəndərovu özünə köməkçi götürsə də, az sonra o bu vəzifəni də itirib. Onun vaxtilə Təhsil nazirinin müavini olmuş əmisi İsgəndər İsgəndərov da 2011-ci ildə bu postundan məhrum olub. Həmçinin N.İsgəndərovun atası olan və "Univermaq Zaman" kimi tanınan Zaman İsgəndərovun da mövqeləri zəiflədiyindən 2010-cu illərin ikinci yarısından etibarən "Atlanta" qeyri-rəsmi şəkildə Ə.Qarayevin himayəsinə keçib. Xüsusilə 2017-ci ilin iyul ayında adıçəkilən istirahət və əyləncə mərkəzində baş verən faciəli hadisədən (10 yaşlı Qədirov Xəyal Nihad oğlunun hovuzda təhlükəsizlik tədbirlərinin olmaması səbəbindən boğulması) sonra "Atlanta"nın ağır cəzalardan qurtulması da keçmiş Mədəniyyət nazirinin xidməti sayılır.

Bundan başqa, Tahir Qədəşovun elə həmin ilin sentyabrında ölkədə turizmin inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilməsi üçün təqdimatın verilməsi də Ə.Qarayevin sayəsində mümkün olub.

Qeyd edək ki, sabiq nazirin Azərbaycanda xüsusilə Şamaxı və Qubada istirahət etməyə üstünlük verdiyi, vəzifədə olarkən "Atlanta"ya da mütəmadi baş çəkdiyi barədə iddialar var.

Əgər Qarayev nazir postunda qalmağa davam etsəydi, Tahir Qədəşov həbs cəzası ilə üz-üzə qalardımı? Bütün bu söylənilənlərin fonunda indi ən maraq doğuran sual budur...

***Sənan Mirzə***

# Zərdüşt Əlizadə: "Təbii ki, İran azərbaycanlıları susmayacaq"

## "Azərbaycan İran kimi siyasi oyunçuya öz hüquqlarını xatırlatdı"

***Ötən gün İranın ölkəmizdəki səfiri Azərbaycan Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb. Görüşdə səfirin diqqəti İran İslam Respublikasına məxsus yük avtomobillərinin Qarabağa qanunsuz səfər etməsi ilə bağlı aşkar edilmiş arzuolunmaz faktlara cəlb edilib, bununla bağlı qarşı tərəfə nota təqdim olunub.***

Notada son dövrlər İrana məxsus müxtəlif təyinatlı avtomobillərin davamlı olaraq rəsmi Bakının icazəsi olmadan Azərbaycanın Qarabağ bölgəsinə giriş-çıxış etməsi ilə bağlı narazılığımız ifadə edilib. Həmçinin bir müddət əvvəl İran tərəfinə şifahi şəkildə çatdırılmış narazılıq görüş zamanı səfirin qarşısında bir daha qaldırılıb.

İran Qarabağa nə daşıyır?

Sosial şəbəkə və saytlarda yayılan kadrlardan göründüyü kimi, İran dövlət nişanlı yük avtomobilləri fasiləsiz olaraq Ermənistanın Goru şəhərindən Laçın dəhlizilə keçərək Qarabağa giriş-çıxış edir. Onların əksəriyyəti yanacaq daşıyan maşınlardır. Bu qədər yanacaq Qarabağ ermənilərinə niyə daşınır? Tehranın bu addımı nədən xəbər verir?



Siyasi şərhçi Zərdüşt Əlizadə Modern.az-a bildirib ki, Azərbaycana XİN İrana nota verməklə, rəsmi Tehrana öz hüquqlarını xatırlatdı: "Müharibədən öncə özbaşınalıq idi. Kim istəyirdi Qarabağa gəlirdi, Azərbaycandan soruşan yox idi. Müharibədən sonra vəziyyət kəskin dəyişdi. İndi Azərbaycan öz suverenliyini bərpa edir. Qarabağda bərpa işləri gedir, rus sülhməramlıların nəzarətində olan əraziləri yavaş-yavaş diplomatik yolla qaytarmağa çalışır. Görünür, İran əvvəlki vəziyyətə öyrəşib. Hesab edirlər ki, suverenlik yoxdur. Azərbaycan müharibədən sonra qəti şəkildə İran kimi siyasi oyunçulara öz hüquqlarını xatırlatdı".

Z.Əlizadə hesab edir ki, İran azərbaycanlıları rəsmi Tehranın mövqeyilə razılaşmayacaqlar. Hətta etiraz aksiyalarının keçirilməsi gözlənilir: "İran Ermənistana mal gətirir, orada pul xatirinə işlər görür. Xankəndiyə gedən İran maşınlarının sürücülərinə, şirkətlərinə, onlara nəzarət edən İran dövlət müəssisələrinə Azərbaycan nota verir. Bu, vaxtında səslənmiş xəbərdarlıqdır. Real hökümət bu kimi xəbərdarlıqdan nəticə çıxarmalıdır, əksi olarsa, aşkar şəkildə üzə çıxacaq. Bu zaman İran azərbaycanlıları İran hökumətinin mövqeyindən razı qalmayacaqlar. Təbii ki, azərbaycanlılar buna susmayacaq, küçələrə çıxacaq və etirazlarını bildirəcəklər".

# Regionda təhlükəli oyun qurulur

## Rusiya sülhməramlılarının fəaliyyətsizliyi, ermənilərin təxribatlarını artırması yeni gərginliyə səbəb ola bilər

***Son günlər Ermənistan sərhəd təxribatlarının sayını artırıb. Ən pisi isə odur ki, sərhəddəki gərginliklə kifayətlənməyən İrəvan Qarabağda da hərbi-siyasi təxribatlara qol qoyur. Artıq iş o həddə çatıb ki, Azərbaycan Müdafiə Nazirliyi daha sərt reaksiya verməli olub.***

Azərbaycan Müdafiə Nazirliyinin dünən yaydığı məlumatda deyilir ki, Ermənistan tərəfi məqsədyönlü şəkildə vəziyyətin gərginləşdirilməsi üçün təxribatlara əl atır: "Bütün bunlar Ermənistanın yeni müdafiə naziri Vaqarşak Arutyunyanın Ermənistan ordusuna bütün vasitələrdən istifadə edərək, güc tətbiq etmək barədə verdiyi məsuliyyətsiz və təhrikçi əmrinin fonunda baş verir. Xatırlatmaq istərdik ki, Ermənistanın sabiq müdafiə naziri David Tonayan da "yeni müharibələr, yeni ərazilər" adlandırdığı təxribatçı hərbi doktrina ilə çıxış etmişdi. Onun rüsvayçı aqibəti hər kəsə məlumdur. Azərbaycan Ordusu tərəfindən bütün adekvat tədbirlərin görülməsi təmin olunacaq".

Nazirlik Rusiya Federasiyası sülhməramlı qüvvələrini də fəaliyyətsizliyinə görə xəbərdar edib. Qeyd edilir ki, sülhməramlılar üçtərəfli bəyanatın müddəalarına uyğun olaraq, müvəqqəti dislokasiya olunduqları Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin yerləşdirilməsi hallarına son qoymalıdır. "10 noyabr 2020-ci ildə Azərbaycan Respublikası Prezidenti, Rusiya Federasiyası Prezidenti və Ermənistan Baş nazirinin imzaladığı üçtərəfli bəyanata uyğun olaraq, Ermənistan silahlı qüvvələrinin qalıqlarının tam şəkildə Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarılması təmin olunmayıb ",-Nazirliyin bəyanatında qeyd edilib.

O da bildirilir ki, son günlər ərzində Ermənistanın üçtərəfli bəyanatı kobud şəkildə pozaraq, öz silahlı qüvvələrinin şəxsi heyətini Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə daşıması, Muxtarkənd, Şuşakənd məntəqələri yaxınlığında, eləcə də Kəlbəcər və Laçın rayonlarının inzibati hüdudlarının şərq istiqamətindəki ərazilərdə yeni erməni postlarını qoyması halları müşahidə olunur.

Milli Məclisin deputatı Sahib Alıyev fikirlərini "Unikal" qəzeti ilə bölüşərkən deyib ki, Rusiya Federal Veterinar və Fitosanitar Nəzarəti Xidmətinin əməkdaşları Azərbaycandan aparılan meyvə-tərəvəzdə tez-tez güvə, qurd, gözlə, heç mikroskopla da sezilməyən digər zərərvericiləri "tapdıqları" halda həmən ölkənin sülhməramlı adı altında Qarabağa göndərdiyi hərbi kontingenti bir addımlıqlarında Ermənistan Silahlı Qüvvələrinin oradan çoxdan çıxarmalı olduqları tör-töküntülərini "görmür". Onun sözlərinə görə, bəzən özlərini bizim dost, strateji tərəfdaş kimi yanaşdığımız Rusiyanın deyil, Makron Fransasının təmsilçiləri kimi aparırlar: "Ona görə də, bəlkə onların əhəmiyyətli bir hissəsini Federal Veterinar və Fitosanitar Nəzarəti Xidmətinin əməkdaşlarıyla əvəz etmək lazımdır? Əgər Rusiya hərbçiləri Ermənistan Silahlı Qüvvələrinin Qarabağdan çıxarmalı olduqları tör-töküntülərini göndərməyə nəqliyyat tapmırlarsa, bizim ikinci Qarabağ savaşında qələbəmizə "sevindiyini" deyən İranın orada davamlı görünən tırlarına doldurub yola sala bilərlər. Yeri gəlmişkən, Qarabağdakı bu canfəşanlıqlarına görə İranın ölkəmizdəki səfiri Xarici İşlər Nazirliyinə çağırılaraq ona nota təqdim edilib və düz də edilib. Rəsmi Bakının izni olmadan heç bir dövlət, o sıradan da Ermənistana və Qarabağdakı separatçı ünsürlərə dəstəyini əsirgəməyən İran, Azərbaycan torpağına yük dolu tırlarını göndərə bilməz".

Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev isə bizimlə söhbətində bildirib ki, 10 noyabr sazişindən sonra Azərbaycana gələn rus qoşunlarını işğalçı adlandırıb, onlar sülhməramlı deyil. Partiya sədri bildirib ki, üçtərəfli bəyanatda qeyd olunmasına baxmayaraq Azərbaycan tərəfinin maraqlarına dair bəzi məsələlər icra edilmir: "Rusiya öz maraqlarını təmin etmək istəyir və qoşunlarını Dağlıq Qarabağ ərazisinə yerləşdirməklə ərazilərimizi işğal edib. Ondan sonra baş verənlər, Laçın dəhlizinin işlədiyi halda Zəngəzur dəhlizinin açılmaması kimi məsələlər onu sübut edir ki, Rusiya Cənubi Qafqazda qalmaq üçün bu konfliktdən istifadə edir. Rusiya sülhməramlıları qanunsuz şəkildə Azərbaycan ərazilərinə gəliblər. Bu məsələlər dərinləşəcək. Artıq bu məsələlər Azərbaycan-Ermənistan və yaxud Azərbaycan-Rusiya məsələləri deyil, qlobal məsələdir. Putin SSRİ-ni bərpa etmək istəyir. Biz millət kimi bir qədər ayıq olmalıyıq. Rusiya öz qoşunlarını bütün Azərbaycan ərazilərinə yerləşdirmək istəyir. Bu, Azərbaycanın dövlət müstəqilliyinə təhdiddir. Ruslar bunu istəyirlər. Sevindirici haldır ki, 8 ay ard-arda olunan qanun pozuntularından sonra Azərbaycanın Xarici İşlər nazirliyi və Müdafiə nazirliyi adekvat movqe ifadə etməyə başlayıblar. Əslində, buna qədər olan mövqeləri yanlış idi. Azərbaycanlıların həmin ərazilərə qayıtmaması, "İsgəndər" raketinə cavabın verilməməsi, Laçın dəhlizinə nəzarətimizin olmaması kimi məsələlər hamısı yanlış idi. Onlara izahatlar tələb olunmalıdır. Mən bu bəyanatlardan belə başa düşürəm ki, artıq vəziyyət kritik həddə gəlib. Şuşada olan atışma qırmızı cizgidir. Çox güman ki, Azərbaycan hakimiyyətində kəşfiyyat məlumatları var. Rus qoşunları perimetr boyu Azərbaycan-Ermənistan sərhədinə yerləşdirilir. Bu dəfə artıq Rusiya qoşunlarının perimetr boyu üzərimizə gəlməsi ehtimalı var. Mən hesab edirəm ki, dünən baş verən hadisələrin hamısı dərinləşəcək məsələlərdir. Əlbəttə ki, biz buna hazır olmalıyıq".

VİP sədri İran İslam Respublikasına məxsus olan yük avtomobillərinin qanunsuz yollarla Qarabağ ərazisinə daxil olmasına da münasibət bildirib: "Laçın dəhlizi Azərbaycan tərəfindən nəzarətə götürülməlidir. Bizim Laçın ərazisində olan sərhədimiz bərpa edilməlidir. Orada rus, erməni və Azərbaycan Silahlı Qüvvələri birlikdə fəaliyyət göstərməlidir. Biz Dağlıq Qarabağ ərazisinə girib çıxan dəstələri, maşınları, orada daşınan məmulatları nəzarət altında saxlamağı bacarmalıyıq. Əks halda biz verdiyimiz bəyanatlarla heç nəyə nail ola bilmərik".

Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu isə bildirib ki, ruslar sülhməramlı qüvvələri adı altında Azərbaycana soxulduğu ilk dəqiqədən biz bunu işğal adlandırmışıq. Onun fikrincə, Rusiyanın burada heç bir sağlam məqsəd güdmədiyini və Yaxın Şərqdə apardığı 300 illik oyunu yeni dövrdə davam etdirmək niyyətində olduğunu bildirdik: "Onlar bu məsələdə səmimi deyil. Biz Rusiyanın Qarabağdakı məkrli oyunlarını hələ əvvəldən bəyan etmişik. Təəssüf ki, bizim dediklərimiz nöqtə və vergülünə qədər tamamilə düz çıxdı".

Siyasətçi onu da deyib ki, Rusiyanın Qarabağdakı silahlı qüvvələrinin əleyhimizə olan fəaliyyətini neytrallaşdıracaq konkret addımlar atılmalıdır: "Azərbaycan hökuməti də açıq-aşkar görür ki, Ruslar 300 il bundan əvvəl bizimlə hansı böyük oyunu oynayıblarsa, bu gün də onu davam etdirirlər. Mənə elə gəlir ki, Azərbaycan Müdafiə Nazirliyinin bu bəyanatı kifayət qədər adekvat, eləcə də yerində verilmiş xəbərdarlıqdır. Düşünürəm ki, Azərbaycan bu məsələyə çox ciddi nəzarət edir və Qarabağdakı Rusiya silahlı qüvvələrinin bizim əleyhimizə zidd olan fəaliyyətini neytrallaşdıracaq konkret addımlar atacaq".

Məsələni şərh edən hərbi ekspert Ədalət Verdiyev deyir ki, Rusiya sülhməramlılarının nəzarətində olan Azərbaycan ərazilərindən ordumuzun mövqelərinin atəşə tutulması və digər təxribatların baş verməsi qəbul ediləcək hal deyil: "Həmin erməni silahlıları bu ərazilərdən Rusiya sülhməramlılarının yerləşdirilməsilə paralel olaraq çıxarılmalı idi. Əfsuslar olsun ki, bu günə kimi onların təmizlənməməsinin şahidi oluruq. Əksinə, hətta bölgəyə ən azı iki dəfə erməni silahlılarının daşınmasına dair vizual görüntülərə malik olmuşuq. İlk dəfə belə hadisəni noyabrın 26-da müşahidə etdik. Həmin



vaxt Ermənistanın Şirak vilayətindən gələn 62 terrorçu hərbçilərimiz tərəfindən zərərsizləşdirilərək məsuliyyətə cəlb edilmişdi. Hazırda onlardan 44 nəfəri azadlıqdan məhrum edilib. Digərlərinin cinayət işləri isə davam edir. Yəni ilk təxribat halına yol verənlər layiqli şəkildə cəzasını alıblar.

Ekspert onu da deyir ki, sülhməramlıların bu cür arzuolunmaz fəaliyyətləri təkcə göz yumduqları erməni silahlılarının təxribatları ilə bağlı deyil. "Ermənilər məlum ərazilərdə təxribatlarla yanaşı atəş mövqelərinin təchizatı ilə məşğuldurlar. Yəni mühəndis-istehkam qurğularının inşasını həyata keçirirlər. Sual oluna bilər, Azərbaycan ərazisində erməni silahlısının inşa etdiyi mühəndis-istehkam qurğuları kimə qarşı yönəlib? Rusiya sülhməramlılarının proseslərə məsuliyyətsiz yanaşmasından cəsarətlənən Ermənistanın yeni müdafiə naziri Arşak Karapetyan isə sərsəm bəyanatlar səsləndirməkdədir. Azərbaycan Ordusuna bütün güc və vasitələrlə əks-təsir göstərəcəyini vəd edən Karapetyana sual vermək istəyirəm. Onun tətbiq edəcəyi güc və vasitələrin hərbi qənimətlər parkında nümunələri mövcuddurmu? Əgər mövcud deyilsə, o zaman nazirin xəyal etdiyi hərbi əməliyyatların başlanmasını biz də arzu edərdik. Erməni ordusunun hansısa növbəti əməliyyatlara başlaması yalnız və yalnız hərbi qənimətlər parkının eksponantlarının sayının artması ilə nəticələnəcəyi heç bir şübhə doğurmur,- ekspert fikrini tamamlayıb.

***Z.Məmmədli***

# Tokio-2020-də yer tutan idmançı və məşqçilərə pul veriləcək - SƏRƏNCAM



***Prezident İlham Əliyev Yaponiyanın Tokio şəhərində keçirilən XXXII Yay Olimpiya Oyunlarında Azərbaycan idmançıları və onların məşqçiləri üçün yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında sərəncam imzalayıb.***

Unikal.org xəbər verir ki, sərəncama əsasən, XXXII Yay Olimpiya Oyunlarında əldə etdikləri yüksək nəticələrə görə ikinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min) manat, onun məşqçisinə 100 000 (yüz min) manat, üçüncü yeri tutan hər bir idmançıya 100 000 (yüz min) manat, onun məşqçisinə 50 000 (əlli min) manat mükafat veriləcək. Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# Prezident İlham Əliyev Oljas Süleymenovu qəbul edib

***Avqustun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli qazax şairi və ictimai xadim Oljas Süleymenovu qəbul edib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev Oljas Süleymenovu ölkəmizdə salamlamaqdan məmnunluğunu bildirdi və qeyd etdi ki, onu Azərbaycanda xalqımızın böyük dostu kimi tanıyır, həm qardaş Qazaxıstan mədəniyyətinin görkəmli nümayəndəsi, həm də bütün məsələlər üzrə öz prinsipial mövqeyini hər zaman söyləmiş ictimai xadim kimi sevirlər.

Görkəmli qazax şairinin Azərbaycanı həmişə dəstəklədiyini vurğulayan dövlətimizin başçısı bildirdi ki, Oljas Süleymenov Ermənistanla Azərbaycan arasında münaqişənin həlli işində ölkəmizi həmişə dəstəkləyib. Prezident İlham Əliyev görkəmli şairin ən çətin zamanlarda da öz köklərinə, xalqına sadiq olduğunu və Qazaxıstanın uğurlu inkişafı üçün əlindən gələni əsirgəmədiyini dedi.

Ulu öndər Heydər Əliyevlə Oljas Süleymenovun dostluq münasibətlərini və görüşlərini xatırladan dövlətimizin başçısı bu görüşlərin bir neçəsində özünün də iştirak etdiyini bildirdi, Ümummilli Liderin Oljas Süleymenova həm istedadı, həm də ictimai fəaliyyətinə görə hörmət bəslədiyini qeyd etdi.

Türk dünyası ölkələrinin birliyi, türkdilli ölkələr arasında həmrəyliyin möhkəmləndirilməsi işində görkəmli şairin səylərini vurğulayan Prezident İlham Əliyev bunun xüsusən hazırda dünyada vəziyyətin dəyişdiyi dövrdə mühüm əhəmiyyət daşıdığını dedi.

Dövlətimizin başçısı Oljas Süleymenovun Azərbaycanın bir neçə ali mükafatı ilə təltif olunduğunu xatırlatdı, Azərbaycanla Qazaxıstan arasında mədəni əlaqələrin inkişafına verdiyi töhfələrə görə bu ilin may ayında "Şərəf" ordeni ilə təltif edildiyini bildirdi və ordeni görkəmli qazax şairinə təqdim etdi.

Azərbaycanın "Şərəf" ordeni ilə təltif edilməsinə görə qürur duyduğunu deyən Oljas Süleymenov dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi sayəsində 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasını məmnunluqla vurğuladı və həmin günlərdə mənəvi cəhətdən Azərbaycan xalqının yanında olduğunu qeyd etdi. Görkəmli qazax şairi bildirdi ki, bu Qələbə bütün türk dünyasının çox böyük növbəti uğurudur və o, tarixdə qalacaq.

Oljas Süleymenov Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma işlərini də məmnunluqla vurğuladı.

Azərbaycan Prezidenti İlham Əliyev Oljas Süleymenova "Qarabağ işğaldan əvvəl və sonra" adlı kitab hədiyyə etdi.

# Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi yaradılır

***Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə şəhərsalma məsələləri haqqında fərman imzalayıb.***

"Qafqazinfo" xəbər verir ki, fərmanda deyilir:

1. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi yaradılsın.

2. "Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki, Ağdam, Cəbrayıl, Füzuli, Kəlbəcər, Qubadlı, Laçın, Şuşa, Xocalı, Xocavənd və Zəngilan rayonlarının inzibati ərazilərində Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 noyabr tarixli 375 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi Qaydaları"nda nəzərdə tutulmuş yerli səviyyədə dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi müvəqqəti olaraq Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsinə həvalə edilir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsinin fəaliyyətinin təşkili ilə bağlı müvafiq yerin ayrılması, zəruri maliyyə və maddi-texniki təminat məsələlərini həll etsin;

4.2. bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının



Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsinin yaradılması ilə bağlı zəruri tədbirlərin görülməsini və həmin İdarə fəaliyyətə başlayanadək tikinti obyektlərinin tikintisinə və istismarına icazələrin verilməsini, habelə icazələrin verilməsindən irəli gələn digər səlahiyyətlərin həyata keçirilməsini təmin etsin.

6. "Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi haqqında Əsasnamənin, komitənin strukturunun təsdiq edilməsi, aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 9 noyabr tarixli 647 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 11, maddə 1095; 2009, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2016, № 11, maddə 1831; 2017, № 1, maddə 39; 2019, № 3, maddə 437) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3-cü hissədə "220" rəqəmləri "350" rəqəmləri, "170" rəqəmləri "220" rəqəmləri ilə əvəz edilsin və "50 ştat vahidi" sözlərindən sonra ", Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi üzrə isə 80 ştat vahidi" sözləri əlavə edilsin;

6.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Strukturu"na aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

"3. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi.".

7. "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 847; 2014, № 10, maddə 1196; 2015, № 3, maddə 270, № 5, maddə 531, № 9, maddə 1006; 2016, № 6, maddə 1059, № 11, maddə 1824; 2017, № 1, maddə 40, № 5, maddə 825, № 11, maddə 2012; 2018, № 3, maddə 417, № 5, maddə 910, № 8, maddə 1676, № 11, maddə 2289, № 12 (I kitab), maddə 2616; 2019, № 3, maddə 434, № 5, maddə 826, № 10, maddə 1581; 2020, № 5, maddə 559, № 6, maddə 684, № 7, maddə 891; 2020, № 11, maddə 1341) 4.7-1.2.1-ci yarımbəndində və 4.7-4-cü, 4.12-ci bəndlərində "inzibati ərazisində" sözləri "və "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazilərində" sözləri ilə əvəz edilsin.

# Azərbaycan, Pakistan və Türkiyənin birgə təlimləri olacaq

***Bakıda Azərbaycan, Pakistan və Türkiyənin xüsusi təyinatlı qüvvələri nümayəndələrinin iştirakı ilə "Üç Qardaş - 2021" birgə təliminin yekun planlaşdırılması konfransı keçirilir.***

Müdafiə Nazirliyindən "Qafqazinfo"ya verilən məlumata görə, tədbirdə təlimin proqramı, məqsədi, qarşıya qoyulan tapşırıqlar, iştirakçıların sayı və digər təşkilati məsələlər dəqiqləşdirilir.

"Üç Qardaş - 2021" beynəlxalq təliminin dost və tərəfdaş ölkələrin hərbi qulluqçularının sülh və müharibə dövründə əməliyyatlara hazırlanması, bilik və təcrübə mübadiləsinin aparılması üçün əlverişli mühitin yaradılmasına müsbət təsir göstərəcəyi qeyd olunub.

Konfrans avqustun 13-dək davam edəcək.



# UNEC-ə yeni prorektorlar təyin olundu

***Azərbaycan Dövlət İqtisad Universitetinə (UNEC) yeni prorektorlar təyin olunub.***

Unikal.org xəbər verir ki, bu barədə UNEC-in rektoru Ədalət Muradov müvafiq əmr imzalayıb.

Əmrə əsasən, universitetin




Maliyyə və mühasibat fakültəsinin dekanı dosent Gəray Musayevi Tədris və təlim texnologiyaları üzrə, Təhsilin keyfiyyətinin qiymətləndirilməsi və idarə edilməsi mərkəzinin direktoru dosent Raqif Qasımovu isə Rəqəmsallaşma üzrə prorektor vəzifəsinə təyin edilib.

# Ermənistanın İsraildəki səfiri geri çağırıldı

***Ermənistan Prezidenti Armen Sarkisyan ölkənin İsraildəki səfirini geri çağırıb.***

"Unikal" "Sputnik Ermənistan" istinadən xəbər verir ki, A. Sarkisyan Ermənistanın İsraildəki səfiri Armen Smbatyanın geri çağırılmasına dair sərəncam imzalayıb.



Bildirilir ki, hələ aprel ayında səfir Smbatyan barəsində ölkənin keçmiş mədəniyyət və gənclər naziri Hasmik Poqosyanla əlbir olaraq vəzifə səlahiyyətlərindən sui-istifadə etmək, həmçinin çirkli pulların yuyulmasında iştirak etməklə bağlı ittiham irəli sürülüb.

# Azərbaycanda koronavirusa yoluxanların sayı 2600-ü ötdü - 14 nəfər öldü

***Azərbaycanda bu gün koronavirus infeksiyasına 2674 yeni yoluxma faktı qeydə alınıb, 576 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

Unikal.org xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son sutkada 14 nəfər COVID-19-dan dünyasını dəyişib.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2500

# Azərbaycan XİN-dən Ermənistana cavab

## Nazirlik: "Bu, Ermənistanın növbəti uğursuz cəhdidir"




***"Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycanı 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatı pozmaqda ittiham edən 11 avqust 2021-ci il tarixli bəyanatı Ermənistan Respublikasının üçtərəfli sənədin müddəalarına tam riayət etmək öhdəliklərindən boyun qaçırmağa yönəlmiş növbəti uğursuz cəhdidir".***

Bu barədə Unikal.org-a Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib. "Ermənistan Xarici İşlər Nazirliyinin diqqətinə çatdırırıq ki, üçtərəfli bəyanatın 1-ci maddəsində "tam atəşkəsin və münaqişə zonasında bütün hərbi əməliyyatların 10 Noyabr 2020 Moskva vaxtı ilə 00:00-dan etibarən dayandırılması" elan edilir, o cümlədən Azərbaycan Respublikası ilə Ermənistan Respublikası "tutduqları mövqelərində dayanırlar" qeyd olunur. Vurğulamaq istərdik ki, "dayanmaq" sözü bu və ya digər kontekstdə "qalmaq" mənasını vermir. Bu həm müqavilənin tərtib olunduğu rus dilinə, həm də digər dillərə aiddir.

Bundan əlavə, üçtərəfli bəyanatın 3-cü bəndində Rusiya sülhməramlı qüvvələrinin yerləşmə ərazisi "Dağlıq Qarabağdakı təmas xətti və Laçın dəhlizi boyu" olaraq müəyyən olunmuşdur. Üçtərəfli bəyanatın 4 -cü bəndində isə xüsusilə qeyd edilir ki, "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel olaraq yerləşdirilir".

Üçtərəfli bəyanatın 6-cı bəndində deyilir ki, "Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir".

Beləliklə, üç tərəfin imzaladığı 10 noyabr 2020-ci il bəyanatının razılaşdırılmış ifadələri, açıq şəkildə erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını qeyd edir və heç bir şəkildə hərbi qulluqçuların yerdəyişməsi və yerləşdirilməsini nəzərdə tutmur.

Üçtərəfli bəyanatın əsas müddəalarını cəfəng şəkildə şərh etmək cəhdləri, erməni tərəfinin bu ölkə tərəfindən 10 noyabr 2020-ci ildə imzalanan sənədin mahiyyətini tam dərk etmədiyi, və ya əvvəldən onun tələblərinə tam riayət etmək niyyətində olmadığını göstərir. Belə bir davranış bu ölkənin destruktiv mövqeyinin növbəti bariz nümunəsidir.

Beynəlxalq ictimaiyyət erməni tərəfinin beynəlxalq hüququn fundamental norma və prinsiplərinə, beynəlxalq təşkilatların qərarlarına və üzərinə götürdüyü öhdəliklərə əməl etməməsi təcrübəsinə yaxşı bələddir. Bu baxımdan Ermənistanın BMT TŞ-nin 1993-cü il tarixli dörd qətnaməsinin tələblərini yerinə yetirməkdən imtina etməsini xatırlatmaq kifayətdir.

Bu destruktiv yanaşma regionda uzun müddətdir gözlənilən sülh və təhlükəsizliyin təmin edilməsi kontekstində hər hansı bir perspektivdən məhrumdur", - nazirlikdən qeyd olunub.

# Hər iki vaksini vurduran insanların sayı artmalıdır - Deputat

***2020-ci ildən başlayaraq dünya koronavirus pandemiyası ilə mübarizə aparırı. Ötən dövrdə Azərbaycan hökuməti koronavirusla mübarizədə üzərinə düşən işi layiqincə yerinə yetirməyə çalışıb, vətəndaşların sağlamlığını qorumaq üçün lazımi təxirəsalınmaz tədbirlər icra olunub. Prezident İlham Əliyevin və I vitse-prezident Mehriban Əliyevanın nəzarəti altında ən müasir xəstəxaanalar tikilib, avadanlıqlar alınıb. Bu işlərin nəticəsində Azərbaycan vaksinasiyaya ilk başlayan ölkələrdən oldu.***

Bunu Milli Məclisin deputatı Naqif Həmzəyev deyib. O bildirib ki, yaz aylarında insanların qaydalara əməl etməsi və kütləvi vaksinasiya nəticəsində yoluxma sayı aşağı düşdü, xəstə sayı hədsiz dərəcədə azaldı:

"Beləliklə yumşaldılmalara gedildi. Bu gözlənilən və arzuolunan idi. Xüsusilə il yarım ərzində toy şənlikləri keçirə bilməyən insanların istəkləri nəzərə alınaraq müəyyən qaydalar çərçivəsində bu cür tədbirlərin keçirilməsinə icazə verildi. Açıq havada maska taxılması qadağası götürüldü. Təəssüf ki, bu dövrdə insanların qaydalara əməl etməməsi, toy şənliklərinin keçirilməsi zamanı verilmiş saya riayət olunmaması, COVID pasportunun müxtəlif yollarla alınması, koronaviruslu xəstlərinin bu cür şənliklərdə iştirak etməsi yoluxma sayının artması ilə nəticələndi. İnsanlar bu proseslərdə məsuliyyətsizlik göstərdi və artıq yoluxma sayı 4 rəqəmlidir. Bu hər birimizi narahat edir".



Deputat qeyd edib ki, yoluxmaların bu templə artması hansısa sərt qaydaların yenidən tətbiq olunması məsələni gündəmə gətirə bilər:

"Bu, arzuolunan deyil. İnsanlar sərt qapanmalarn olmasını istəmirlər. Lakin vətəndaşların sağlamlığını qorumaq üçün mütəxəssislərin rəyi ilə ciddi addımlar atılmalıdır. Vəziyyətdən çxımaq üçün vətəndaşların vaksinasiya olunmasına nail olmalıyıq. Bunun üçün hər iki vaksini vurduran insanların sayında artım olmalıdır. Belə olanda risk faktorunu azalda bilərik. İnsanların çox olduğu yerlərdə maskalardan istfadə etməyə çalışaq. Vacib olmadıqca qapalı məkanlara daxil olmayaq. Çalışmalıyıq ki, ara məsafəsi gözləyək, maska taxaq, giigyenik qaydalara əməl edək. Yaxın dövrdə sərt qaydaların tətbiqini və qapanmaların olmasını istəmiriksə, ətrafımızda təbliğat işləri aparaq və vaksinasiyaya ciddi yanaşaq. Bu işə hər kəs səfərbər olmalıdır. Dövlətin həyata keçirdiyi tədbirlərə kölgə salmaq üçün çətin dövrü dəf etməliyik".



# Ombudsman Aparatından erməni təxribatları ilə bağlı bəyanat

***"Ermənistan tərəfinin Azərbaycana qarşı sərhədyanı və işğaldan azad edilmiş ərazilərimiz ətrafında törətdiyi təxribatlar artıq sistemli xarakter almağa başlayıb".***

Bu barədə Ombudsman Aparatından "Unikal"a daxil olan məlumatda deyilir. Bildirilir ki, avqustun 11-dən 12-sinə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri fasilələrlə Çəmbərək rayonunun Çəmbərək, Ttucur, eləcə də Basarkeçər rayonunun Aşağı Şorca yaşayış məntəqələrində yerləşən mövqelərindən Gədəbəy rayonunun Zamanlı, Qaravəllər, Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqələri istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub:

"Bu halın davamlı olaraq təkrarlanması ilə Ermənistan tərəfi hərbi əməliyyatlar tam dayandırıldıqdan sonra bölgədə vəziyyəti yenidən gərginləşdirmək və sülh prosesinə qarşı ciddi təhdidlər yaratmaqla hərbi qulluqçularımızla yanaşı, sərhədyanı ərazilərdə yaşayan mülki şəxslərin də həyat və sağlamlığını təhlükə altında qoyur".

# "Koronavirus sonsuzluq da yarada bilir" - AÇIQLAMA

***"Böyrəklər koronavirus virusuna qarşı çox həssasdır". Unikal.org-un məlumatına görə, bunu Səhiyyə Nazirliyinin "İnstagram" səhifəsindəki canlı yayımda Azərbaycan Tibb Universitetinin Urologiya kafedrasının dekanı Araz İbrahimov bildirib.***

Onun sözlərinə görə, xəstələrin 7-10 faizinin böyrəyi zədələnir, hətta sağlam insanların belə: "Koronavirus xəstəsi sağlam olsa belə, böyrəyinə təsir edə bilər, çünki aparılan müalicələr zamanı çox ciddi dərman terapiyası gedir. Gündəlik 20-25 tabletka dərman içilir, bunlar böyrək və qaraciyərlə xaric olunur, ona görə də əsas böyrək zədələnir. İkinci tərəfdən, yayılan pnevmaniya bədəndə oksigeni azaldır, kliniki boğulma da olur, beyin, böyrək, ürək və bütün orqanlara da oksigen çatmadığı üçün böyrək zədələnir. COVID zamanı qan laxtalanmasında da pozulma yaranır və damarları zədələyir, bu da böyrəyə zərər verir. Eyni zamanda, ikincili infeksiyalar yaranır, bu da böyrəyə təsir edə bilir".

A.İbrahimov deyib ki, iki ilə yaxındır koronavirus dünyada yayılıb, artıq müəyyən statistikalar hazırlanıb: "Çində araşdırma statistikasına görə, virusdan ölən xəstələrin 32 faizində kəskin böyrək çatışmazlığı olub. Virusa yoluxanların 3-10 faizində isə ani böyrək çatışmazlığı yarana bilir. Şəkərli diabet xəstələrində böyrəklərin çox hissəsi sıradan çıxır, COVID də buna təsir edir. Eyni zamanda, piylənmədən əziyyət çəkə insanlar da böyrəklə bağlı risk qrupundadır. İnsanların xəbəri olmadan bəzilərində uroloji və onkoloji xəstəliklər var. COVID zamanı qanaxma ola bilər, bu zaman xəstənin uroloji və ya onkoloji xəstəkliyi olduğunu da üzə çıxara bilir. Koronavirus sonsuzluq belə yarada bilir".

# Peyvənd olunanların sayı açıqlandı

***Azərbaycanda bu gün 64280 nəfər vaksinasiya olunub. Nazirlər Kabineti yanında Operativ Qərargahdan Unikal.org-a verilən məlumata görə, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 43943, ikinci mərhələ üzrə peyvənd edilənlərin sayı 20337 nəfər olub.***

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 5607591, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 3287430, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı isə 2320161 təşkil edir.




# Deputat ANAMA əməkdaşları ilə bağlı təkliflər irəli sürdü

***Torpaqlarımız işğaldan azad olunduqdan sonra minatəmizləyənlərin üzərinə daha çox görəv düşüb. İlkin qiymətləndirmələrə görə, azad olunan ərazilərimizdə işğal müddətində erməni silahlı qüvvələri tərəfindən yüz minlərlə mina basdırılıb.***

Bunu Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov deyib. Onun sözlərinə görə, yalnız Füzuli və Zəngilan rayonlarına 92 mindən çox mina basdırılıb ki, bu da mina təmizləyənlərin işinin miqyasının necə geniş olduğunu təsəvvür etməyə imkan verir. İkinci Dünya Müharibəsi daxil olmaqla fərqli savaşların nümunələri göstərir ki, ərazilərin minalardan təmizlənməsi uzun müddət tələb edir.

"Aydındır ki, minatəmizləyənlər həyatı baxımdan məsuliyyətli və şərəfli fəaliyyət həyata keçirirlər. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işinin gücləndirilməsi fonunda minatəmizləyənlərə də xüsusi güzəştlərdən istifadə hüququnun verilməsi məqsədəuyğun olardı. Əvəlla, mənzil təminatının yaxşılaşdırılması üçün minatəmizləyənlərə də sosial ipotekadan istifadə hüququnun verilməsinə məqəsədə uyğundur. Belə ki, güzəştli ipotekadan istifadə etmək hüququ minatəmizləyənlərin aşağı fazili kreditlər ilə ev almasına imkan yarada bilər".

Deputat Əmək pensiyaları haqqında Qanununun 9-cu maddəsinə uyğun olaraq Nazirlər Kabineti tərəfindən minatəmizləyənlərə də güzəştli, yəni daha tez pensiyaya çıxmaq hüququnun verilməsini təklif edib:

"İş şəraitini və risk dərəcəsini nəzərə aldıqda minatəmizləyənlərə daha tez pensiya yaş hüququnun verilməsi məqsədəuğun olardı. Üçüncüsü, ANAMA-nın uzun müddət çalışan əməkdaşlarının pensiya kapitalı məbləğinə yenidən baxılması və 22 faizlik sosial sığorta güzəştinin nəzərə alınaraq vəsaitin hesablanmasına ehtiyac var. Belə ki, uzun müddət həmin işçilər üçün 22 faizlik sosial sığorta güzəştinin tətbiq olunması səbəbindən onların pensiya kapitalı məbləği yüksək olmamışdır.

Dördüncüsü, maliyyə imkaları artdıqca ANAMA əməkdaşlarının əmək haqqlarında artırmların davam etdirilməsi vacibdir. Bu minatəmizləyənlərin sosial müdafiəsinin daha da gücləndirilməsi baxımdan əhəmiyyətlidir. Bütövlükdə, növbəti illərdə ANAMA əməkdaşlarının şərəfli fəaliyyəti daha genişlənəcək. İşğaldan azad olunan torpaqlarımızın daha tez məskunlaşılmasında da minatəmizləyənlərin xüsusi töhvəsi olacaq".

# "14 gün ərzində Azərbaycanın hər cür dəstəyini gördük" - Səfir

***14 gün ərzində Azərbaycanın hər cür dəstəyini gördük. İlk növbədə Prezident İlham Əliyevə dəstəyinə görə təşəkkürümüzü bildiririk.***

Bunu Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı deyib.

Səfir bildirib ki, Türkiyədə yanğın başlayanda ilk dəqiqələrdən Azərbaycan öz dəstəyini göstərdi, yardımlarını göndərdi. Azərbaycanlı yanğın söndürənlər əllərindən gələnləri edirlər:

"Bu gün Türkiyə bayrağı da dəstək məqsədilə Heydər Əliyev Mərkəzində dalğalandırılmaqdadır. Bu da öz növbəsində Azərbaycanın növbəti dəstəyidir. Bu dəstəyə görə bütün qardaşlarımıza təşəkkür edirəm".

# "Azərbaycanın imicinə ləkə salmağa çalışırlar"

## Qabil Hüseynli: "İstəyirlər ki, ikinci Qarabağ müharibəsində itirdiklərinin heç olmasa, bir hissəsini bu cür anti- təbliğat vasitəsi ilə kompensasiya etsinlər"

***Son günlər ərzində Ermənistanın üçtərəfli bəyanatı kobud şəkildə pozaraq öz silahlı qüvvələrinin şəxsi heyətini Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə daşıması, Muxtarkənd, Şuşakənd məntəqələri yaxınlığında, eləcə də Kəlbəcər və Laçın rayonlarının inzibati hüdudlarının şərq istiqamətindəki ərazilərdə yeni erməni postlarını qoyması halları müşahidə olunur. Azərbaycan Ordusu tərəfindən adekvat tədbirlər görülür və bu kimi hallara imkan verilmir. Ermənistan tərəfi məqsədyönlü şəkildə vəziyyətin gərginləşdirilməsi üçün bu kimi təxribatlara əl atır.***

Bu və ya digər məsələlərlə bağlı "Unikal" qəzetinə müsahibə verən sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli ilə söhbətə də elə bu mövzudan başladıq.

***-Qabil bəy, Ermənistan tərəfinin təxribatları artıq intensiv xarakter alıb. Demək olar hər gün dövlət sərhəddi boyu atəş açılır. Sizcə, məqsəd nədir?***

-Ermənistan tərəfi bu sərhəd pozuntularını ölkədən xaricdə, xüsusi ilə də Rusiya və Fransada yaxşı təşkil olunmuş erməni lobbisi vasitəsilə dünya ictimai rəyinə Azərbaycanın günahı, təcavüzkar hərəkəti kimi təqdim etməyə çalışırlar. Beləliklə dünya ictimai rəyində Azərbaycana qarşı müəyyən neqativ fikirlər formalaşdırmağa cəhd edirlər. Bu, bəzən alınır, bəzən də alınmır. Amma hər halda, Ermənistanın bu açıq provakasiyası uzun müddətdir davam edir. Əsas məqsədləri də Azərbaycanı qaralamaqdır.

***-Yalançı, əsası olmayan təbliğat aparmaqla nəyə nail olacaqlar?***

-Bu yolla dünya ictimai rəyini, beynəlxalq təşkilatları Azərbaycana qarşı yönləndirə bilərlər. Təbii ki, Azərbaycan bölgənin ən nüfuzlu ölkəsidir. Eyni zamanda, beynəlxalq təşkilatlarla münasibətləri normaldır. Amma görürsünüz ki, Fransa bu əl boyda ölkəyə hansı formada havadarlıq edir. Rusiyanın müəyyən dairələri də açıq- aşkar Ermənistana havadarlıq edir. Dəyişən odur ki, Azərbaycana qarşı müəyyən qüvvələri qaldıra bilərlər, Azərbaycanın imicinə ləkə salmağa çalışırlar. Bu, az şey deyil. Bunlar istəyirlər ki, ikinci Qarabağ müharibəsində itirdiklərinin heç olmasa, bir hissəsini bu cür anti - təbliğat vasitəsilə kompensasiya etsinlər.

***-Maraqlıdır ki, 30 ilə yaxın işğalçılıq siyasəti yürüdüblər və bu beynəlxalq hüquqla, beynəlxalq sənədlərlə təsdiq olunub. Buna baxmayaraq Ermənistanın imicinə ləkə dəymir, amma bizim barəmizdə yalançı təbliğat aparanda bizə problem yaranır?***

-Dünyada hər şeyi güc həll edir. Bu gün dünyada yalançı hüquq normaları var, beynəlxalq münasibətlərdə hər bir dövlətin öhdəliyi adlı prinsiplər var. Qərb xristian təəssübkeşliyinə daha çox üstünlük verir, nəinki beynəlxalq hüquqa, öz üzərlərinə götürdükləri öhdəliklərə. Bu saat Qərbdə bir müsəlmanfobiya, Türkiyəfobiya, hətta bəzi dairələrdə Azərbaycanfobiya halları formalaşıb. Guya Amerikanın Mərkəzi Kəşfiyyat idarəsi bilmir ki, burada nə baş verir? Fransa prezidenti Makron öz xüsusi xidmət orqanları vasitəsilə məlumat əldə edə bilmir ki, burada real vəziyyət necədir? Tez-tez Paşinyanla danışır və onun səfeh fikirlərinə qulaq asır. Bəli, Qərbin təriflədiyi mədəni dünyada dəyərlər ayaqlar altına alınıb. Xristian təəssübkeşliyi, güc mövqeyindən təzyiq göstərmək, buradakı xristian anklavını qoruyub saxlamaq və digər məsələlərə daha ciddi əhəmiyyət verirlər. Mən də əvvəllər elə bilirdim ki, beynəlxalq hüquq normaları varsa, heç nəyi əzmək, tapdalamaq olmaz. Amma indi görürəm ki, yox, güc hər şeyi həll edir. Necə ki, biz ikinci Qarabağ müharibəsində güc hesabına öz torpaqlarımızı işğaldan azad elədik. Amma Qərb dünyası o zaman da öz torpaqlarını işğaldan azad edən Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirirdi. Nə qədər gülməli olsa da, Fransa Azərbaycanın ermənilərə qarşı soyqırım siyasəti apardığını iddia edirdi. Amerikada müəyyən dairələr də analoji mövqedə idi. Yəni, qeyd elədiyim kimi, ermənilərin Azərbaycana qarşı yürütdüyü qaralayıcı siyasət özünə havadar tapır.

***-Bir məqam da narahatlıq yaradır ki, Rusiyanın nəzarətində olan ərazilərdən də Azərbaycana qarşı təxribatlar törədilir...***



-Azərbaycan tərəfi lazımi səviyyədə davranır. Nə lazımdırsa onu edir. Rusiyanı, beynəlxalq təşkilatları məlumatlandırır. Rusiya siyasi rəhbərliyi ilə aktiv dialoq aparılır. Ermənistana sülh təşəbbüsləri ilə müraciət edir. Amma lazım gələndə, Azərbaycanın milli maraqları nəyi tələb edəcəksə, onu da həyata keçirəcəklər. Hesab edirəm ki, Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi və Rusiya sülhməramlıları öz fəaliyyətini intensivləşdirməlidir. Sülhməramlılar regiona sabitliyi qorumaq, gərginliyi azaltmaq, erməniləri tərki-silah etmək üçün gəlib. Əvəzində isə biz Qarabağda hələ də silahlı ermənilərin olduğunu və onların hətta Azərbaycan əsgərinə güllə atacaq qədər cəsarətləndiyini görürük. Sual yaranır: o zaman Rusiya sülhməramlılarının regionda işi nədir? Ağdamdakı Birgə Monitorinq Mərkəzinin isə ümumiyyətlə fəaliyyəti nəzərə çarpmır. Çünki prosesə yalnız nəzarət edirlər, təsir yox. Ona görə də hesab edirəm ki, bu Mərkəzə prosesə təsir etmə imkanı verilməlidir. İlkin mərhələ kimi isə rus sülhməramlıları bu Mərkəzin tabeçiliyinə keçə bilər. İkinci mərhələdə isə bölgəyə türk sülhməramlılarının gəlişi təmin edilməlidir. Unutmaq olmaz ki, quruculuq işlərinin tez bir zamanda aparılması və Böyük Qayıdışın gerçəkləşməsi üçün regionda sabitlik şərtdir. Buna Türkiyə hərbçiləri də aktiv şəkildə qoşulmalıdır.

***Z.Məmmədli***

# Elmar Məmmədyarov xof içində...

## XİN-in sabiq başçısının "korrupsiya aparatı" ifşa edilir



***Yola salmaq üzrə olduğumuz həftənin diqqətçəkən hadisələrindən biri Bakı Ağır Cinayətlər Məhkəməsində Xarici İşlər Nazirliyinin (XİN) İşlər İdarəsinin sabiq müdiri Fərhad Mollazadə ilə nazirliyin Konsulluq idarəsinin vəzifəli şəxsi Səlim Əlizadənin cinayət işi üzrə məhkəmə prosesinin başlaması oldu. Prosesdə dövlət ittihamçısı ittiham aktını elan edib.***

İttiham aktı kifayət qədər ilginc nüanslarla zəngindir. Belə ki, sənəddən məlum olduğuna görə, F.Mollazadə S.Əlizadə və digərləri ilə əlbir olaraq müxtəlif firmalar vasitəsilə nazirlik üçün hədiyyələr, dəftərxana ləvazimatları, suvenirlər və s. alınması məqsədilə ümumilikdə 2 milyon 543 min 173 manat vəsaiti mənimsəyiblər. Mənimsənilən vəsaitlər tenderlərdə süni şəkildə qalib elan edilməsi yolu ilə həyata keçirilib.

Bu isə məhkəmə prosesinin xüsusilə XİN-in keçmiş başçısı Elmar Məmmədyarov üçün kifayət qədər sürpriz ilə keçə biləcəyinin əlaməti sayılır. Aydın görünür ki, Məmmədyarovun zamanında ölkənin ən strateji nazirliklərindən birində qurulmuş "korrupsiya aparatının" bütün gizlinləri ortaya çıxacaq. Necə deyərlər, "açılacaq sandıq, töküləcək pambıq"...

İlk iclasda maraqlı bir məqam da diqqət çəkib. Məsələ burasındadır ki, hakim Əli Hacıyev təqsirləndirilən şəxslərdən F.Mollazadəyə ifadə verməyi təklif edib. F.Mollazadə də hazırkı mərhələdə ifadə vermək istəmədiyini deyib. Digər təqsirləndirilən S.Əlizadə də hazırkı mərhələdə ifadə vermək istəməyib. Belə görünür ki, adıçəkilən şəxslər bununla eks-nazirə psixoloji təzyiq yolu tutublar. İstisna deyil ki, onlar Elmar Məmmədyarovdan hansısa kömək umurlar. Əks təqdirdə məhkəmə prosesində vaxtilə XİN-də mövcud olmuş "korrupsiya aparatı" ilə bağlı daha əhəmiyyətli nüansları gün işığına çıxara biləcəklərinin mesajını verirlər. Çünki cəmiyyət və media hələ də bu fikirə qəti əmindirlər ki, xarici siyasət idarəmizi cənginə almış rüşvət və yeyintilər bilavasitə keçmiş nazirin nəzarəti altında tüğyan edib. Bəs Məmmədyarovun zamanında XİN-də rüşvət və korrupsiya mexanizmi necə işləyib? İlk prosesdəcə şahid qismində dindirilən şəxslərin ifadələri heyrət doğurur. Məsələn şahid qismində dindirilən, "Muğanbank" və "Əmrah Bank"ın əməkdaşı olmuş Rövşən Məmmədov Səlim Əlizadəni tanıdığını deyib: "Səlim Əlizadə ilə Rəşad adlı tanışım vasitəsi ilə tanış olmuşam.

Bundan sonra onu şirkətlərin rəhbərləri ilə tanış edirdim. Mənim tanış etdiyim şirkətlər süni şəkildə tenderlərin qalibi olublar. Daha sonra Xarici İşlər Nazirliyindən həmin şirkətlərinbankımızda olan hesablarına pul köçürülürdü. Şirkətlər də pulu nağdlaşdırıb 90 faizini Səlim Əlizadəyə verirdilər. Banka müştəri cəlb etdiyim üçün mən də dövriyyədən öz payıma düşəni alırdım".

O, digər təqsirləndirilən F.Mollazadəni tanımadığını deyib.

Şahid qismində məhkəmədə dindirilən Rza Hümbətəliyev də analoji ifadə verib: "Öz adıma MMC açıb vermişdim Rövşənə. Necə fəaliyyət göstərdiyini bilmirdim. Şirkətin hesabına gələn pullardan mənə iki -üç faiz pul çatırdı". Deməyə söz tapmırsan. Qarabağ kimi taleyüklü problemi olan və bu problemin həllində üzərinə strateji əhəmiyyətli işlər düşən bir nazirlik - XİN-də, görün, səlahiyyətli şəxslər əslində nə ilə məşğul imişlər?! Üstəlik, hələ bunlar ilk iclasda ortaya çıxan faktlardır. Məhkəmə iclasları davam etdikcə heyrətimizə, təəssüfümüzə, hətta qəzəbimizə səbəb olacaq inanılmaz faktların səslənəcəyinə şübhə yoxdur. Həmin faktlar isə Elmar Məmmədyarovu çətin suallar qarşısında qoyacaq. Hətta istisna deyil ki, bu qədər qanunsuzluğa ya göz yuman, ya da yaşıl işıq yandıran bir şəxsin özünün nə üçün ədalət mühakiməsi qarşısında dayanmadığına dair fikirlər yenidən aktuallaşacaq. Özü də haqlı olaraq!

Ona görə də eks-nazirin artıq xof içində olduğunu, ciddi təlaş keçirdiyini arxayınlıqla düşünə bilərik. Yəqin, həmin narahatlığın səbəbidir ki, vəzifədən kənarlaşdırıldıqdan sonra səssizliyə bürünən Məmmədyarov qəfildən müsahibə vermək ehtiyacı hiss edib. Həmin müsahibədə siyasi hakimiyyətə yarınmağa çalışıb. Bununla da öz sədaqətini göstərməyə çalışıb. Halbuki xirtəyədək qanunsuzluğa bulaşan məmurların istifadə etdiyi bu texnologiya artıq çoxdan köhnəlib.

İndi kimliyindən asılı olmayaraq istənilən vəzifəli şəxsin yol verdiyi qanunsuzluqlara görə məhkəmə önündə dayanmaq zamanıdır. Bunu həbsdə olan çoxsayda iri məmurun olması da təsdiqləyir. Odur ki Məmmədyarov ənənəvi yollarla "sudan quru çıxmağa" çalışmaq əvəzinə hüquq qarşısında konkret suallara cavab verməlidir. Məsələn, xarici siyasət idarəsi kimi önəmli bir qurumda korrupsiyanın at oynatmasına niyə, hansı səbəblə imkan yaratdığını açıqlamalıdır...

*Hüseyn İsgəndərov*

# Paşinyan İlham Əliyevlə danışıqlara hazır olduğunu bildirdi



***Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanla danışıqları davam etdirməyə hazır olduğunu açıqlayıb.***

Unikal.org erməni mətbuatına istinadən xəbər verir ki, o, bu barədə Ermənistan hökumətinin bu gün keçirilən müntəzəm iclasında qeyd edib.

Belə ki, Nikol Paşinyan İlham Əliyev ilə görüşməyə və regionda sabitliyin təmin edilməsi məsələsini müzakirə etməyə hazır olduğunu bildirib.

*Gülayə Mecid*

# Dünya şöhrətli həkimlər qazilərimizi müayinə edir



***Səhiyyə Nazirliyi və "YAŞAT" Fondunun təşkilatı dəstəyi ilə dünya şöhrətli azərbaycanlı alim həkimlərimiz öz təşəbbüsləri ilə qazilərimizi tibbi müayinə edirlər.***

Nazirlikdən "Unikal"a verilən məlumata görə, avqustun 12-dən 14-ə kimi Kopenhagen Universitetinin (Danimarka) nevrologiya üzrə professoru, Beynəlxalq Başağrısı Cəmiyyətinin prezidenti Məsud Aşina, Harvard Universiteti Tibb Məktəbinin (ABŞ) dosenti, Boston şəhərində yerləşən Başağrısı Mərkəzinin direktoru Səid Aşina, Kopenhagen Universitetinin Başağrısı və Nevrologiya Mərkəzinin elmi işçisi Xəqan Aşina Bakı Sağlamlıq Mərkəzində planlaşdırılmış, şikayəti olan Vətən müharibəsi iştirakçılarının tibbi müayinə və müalicələrini aparırlar.

Qeyd edək ki, professor Məsud Aşina uzun illər Azərbaycandan uzaqda yaşasa da, doğma Vətəni heç vaxt unutmayıb, diasporamızla sıx əlaqədə olaraq hər zaman xalqımıza öz dəstəyini göstərib. Məsud Aşina Prezident İlham Əliyevin sərəncamı ilə "YAŞAT" Fondunun Himayəçilik Şurasının üzvü təyin edilib.

# Jurnalistika" ixtisasına qeydiyyat başladı

***III ixtisas qrupu üzrə imtahan verən və "Jurnalistika" ixtisasına qəbul olmaq istəyən abituriyentlərin qeydiyyatı başlayır.***

Unikal.org xəbər verir ki, III ixtisas qrupu üzrə imtahan verərək müsabiqə şərtini ödəyən (ümumi balı ən azı 200, imtahanın ikinci mərhələsi üzrə balı isə ən azı 100 bal olmalıdır) və "Jurnalistika" ixtisasına qəbul olmaq istəyən abituriyentlər 12-14 avqust tarixlərində DİM-in internet səhifəsinə daxil olaraq sorğu anketi doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Tələbə qəbulu elanının "Ərizə qəbulu" bölməsinin 3-cü bəndində göstərilən kateqoriyadan olan və digər XQTİ?lər üzrə qeydiyyatdan keçməyən abituriyentlərin cari ildə "Jurnalistika" ixtisası üzrə qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olur. Eyni bölmənin 4-cü bəndində göstərilən kateqoriyadan olan abituriyentlərin isə hamısının "Jurnalistika" ixtisası üzrə qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

Digər abituriyentlər qeydiyyatdan keçmək üçün tələb olunan məbləği şəxsi kabinetindəki hesabına əlavə etməlidirlər.

Abituriyentlər imtahanda təqdim olunan mövzu üzrə yazı işi (inşa) yerinə yetirirlər. Qabiliyyət imtahanından uğurla keçən abituriyentlər ixtisas seçimi zamanı digər ixtisaslarla yanaşı, "Jurnalistika" ixtisasını da seçə bilərlər.

"Jurnalistika" ixtisasına qəbul olmaq istəyən abituriyentlərin qabiliyyət imtahanı avqustun 19-da keçiriləcək. Bu mərhələdən uğurla keçən abituriyentlər ixtisas seçimi zamanı digər ixtisaslarla yanaşı "Jurnalistika" ixtisasını da seçə bilərlər.

Qabiliyyət imtahanı mərhələsində abituriyentlərə təklif olunacaq inşa mövzuları (Azərbaycan və rus dilində), abituriyentlərin yazacaqları inşaya (esseyə) verilən tələblərlə "Xüsusi qabiliyyət imtahanları" jurnalının 1-ci sayında tanış ola bilərsiniz.

# Deputatlar Tahir Kərimlidən danışdı: “Onu harada görsəm...”



*“Əvvəllər də bəzi həmkarlarım çıxışlarıma görə mənə soyuq münasibət bəsləyirdilər, qaçırdılar. Amma o zaman bu, mənə pis təsir etməmişdi. Milli Məclisin növbədənkənar plenar iclasında Eldəniz Səlimovla bağlı etdiyim çıxışa görə həmkarlarım liftdə mənimlə birlikdə qalxmağa qorxurlar”.*

Bu sözləri bir neçə gün əvvəl Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini, Vəhdət Partiyasının sədri Tahir Kərimli mediaya açıqlamasında deyib.

O bildirib ki, həmkarlarından biri - ən yaxın dostu onu övladının toyuna dəvət etməyib.

T.Kərimli hesab edir ki, bütün bunlar həbs edilən deputat Eldəniz Səlimovla bağlı çıxışı ilə əlaqədardır.

Deputat Fəzail Ağamalı məsələ ilə bağlı Modern.az-a bildirib ki, Tahir Kərimlinin çıxışının şəxsi münasibətə aidiyyəti yoxdur: “Tahir Kərimlinin açıqlamasının mənim ona olan həmkarlıq münasibətimə hər hansı bir təsiri yoxdur. Tahir Kərimlini harada görsəm, hər zamanki kimi salamlaşıb və görüşəcəyəm. Hər bir deputatın fərqli fikirləri ola bilər. Onun hansısa çıxışının şəxsi münasibətlərə nə aidiyyəti var?”.

Deputat Fazil Mustafa isə hesab edir ki, koronavirusa görə hamı bir-birindən uzaq gəzir, bunun Tahir Kərimli çıxışı ilə heç bir əlaqəsi yoxdur.

“Hər kəs bir-birindən uzaq gəzir, nəinki Tahir Kərimli ilə. Çünki karantin qaydalarına uyğun olaraq məsafəli davranmaq lazımdır. Tahir Kərimlinin açıqlamasına gəldikdə isə, o məsələyə biraz fərqli tərəfdən yanaşdı. Kimsə onunla dediyi hansısa açıqlamaya görə niyə məsafə saxlasın?

Mən hətta iki deputat həmkarım liftdə olduqda bele içəri daxil olmuram. Gözəgörünməz xəstəlikdən qorunmaq üçün karantin qaydalarına əməl etmək lazımdır”.

# Şəhid ailələrinin mənzil növbəsi ilə bağlı yenilik



***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi şəhid ailələri və müharibə əlillərinin mənzil növbəliliyi barədə məlumatların rayon (şəhər) İcra Hakimiyyətləri tərəfindən Agentliyə elektron formada təqdim edilməsi məqsədilə yeni e-xidməti istifadəyə verib.***

Nazirlikdən “Unikal”a verilən məlumata görə, bu xidmət vasitəsilə həmin vətəndaşların mənzil növbəsinə qeydiyyatı prosesi artıq elektronlaşıb. Rayon (şəhər) İcra Hakimiyyətlərinin əməkdaşları qeyd olunan vətəndaşların mənzil növbəsinə götürülməsi üçün tələb olunan məlumatları və sənədləri yerindəcə həmin e-xidmət üzərindən sistemə daxil edərək doğruluğunu təsdiq edəcəklər. Bununla elektron qaydada növbvətə alınma prosesi bitməklə həmin məlumatlar əsasında Sosial Xidmətlər Agentliyi tərəfindən mənzillə təminat prosesinin həyata keçirilməsi üçün müvafiq işlər aparılacaq. Mənzil növbəsinə qeydiyyatın elektronlaşdırılması bu sahədə müasir və şəffaf iş prinsiplərinin, operativliyin təminatına xidmət edəcək.

Həmin e-xidmət üzərindən növbəti mərhələdə mənzillə təmin edilən imtiyazlı şəxslər barədə də məlumatlar daxil ediləcək. Yeni e-xidmət, ondan istifadə prosedurları barədə Sosial Xidmətlər Agentliyinin mütəxəssisləri tərəfindən rayon və şəhər İH-lərinin müvafiq əməkdaşları üçün təlimlər də keçirilir.

E-xidmət Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya bazasına inteqrasiya olunub. Gələcəkdə sistemin İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin elektron informasiya bazası ilə də inteqrasiya olunması nəzərdə tutulub.

# Əhməd Vəliyevə 1 milyon manatlıq şok...

## Rektorun bankı niyə külli miqdarda zərər edib?

***Sabiq deputat, eyni zamanda Odlar Yurdu Universitetinin sahibi və rektoru Əhməd Vəliyevin ailə üzvlərinə məxsus olan “Muğanbank” ASC ilə bağlı maraqlı proseslər baş verir. Bir neçə ay əvvəl görünən o idi ki, bu il fevral ayının sonuna “Muğanbank” ASC-nin müştərilərə verilmiş kredit portfeli 2020-ci il ilə müqayisədə 11 milyon 113 min manat artaraq, 347 milyon 59 min manat təşkil edib. Ötən il isə həmin rəqəm 335 milyon 946 min manat təşkil etmişdi.***

Bankın yaydığı məlumata görə, “Muğanbank”ın cəmi aktivləri 2020-ci ilin sonundakı 590 milyon 906,22 min manatdan 12 milyon 410,59 min manat artaraq, cari ilin fevral ayının sonuna 603 milyon 316,81 min manata yüksəlib. Yəni rektorun bankında müxtəlif göstəricilərə əsasən böyümə müşahidə olunurdu. Üstəlik, “Muğanbank” ASC ötən ili 707,44 min manat xalis mənfəətlə başa vurmuşdu. 2021-ci ilin fevral ayının göstəricisinə əsasən bankın xalis mənfəəti 2 milyon 52,67 min manat təşkil etmişdi. Bu isə ötən ilin sonu ilə müqayisədə 1 milyon 345.23 min manat çox idi. Qeyd edək ki, son illərdə “Muğanbank”ın maliyyə göstəricilərinin ürəkaçan olmadığına dair məlumatlar yayılırdı. Hətta ötən ilin ortalarında “Muğanbank”ın 2020-ci ilin birinci yarısının 1.9 milyon manat məbləğində zərərlə başa vurduğu, aktivlərinin ilin əvvəli ilə müqayisədə 69.029 milyon manat, xalis kredit portfelinin isə təxminən 9.2 milyon manat azalaraq 348.316 milyon manata düşdüyü bildirilirdi. Həmin vaxt bildirilirdi ki, bank mümkün zərərlər üçün 7.9 milyon məqsədli ehtiyat yaratmağa məcbur olub.

Həmin vaxt maliyyə göstəricilərinin təhlili onu deməyə əsas verirdi ki, 2020-ci ilin əvvəlindən müştərilər bankdan 99.3 milyon manat çıxarıb. Depozit axını həm fiziki, həm də hüquqi şəxslər üzrə qeydə alınıb. “Bankın nizamnamə kapitalı 102.5 milyon manat osla da, məcmu kapitalı mənfi zonaya yuvarlanıb. Belə ki, məcmu kapital minimal olaraq 50 milyon manat olmalı olduğu halda - 694 manatdır. Başqa sözlə, bank fəaliyyətini davam etdirə bilməsi üçün azı 50,694 milyon manata ehtiyacı var” - ASC-nin vəziyyətini tədricən düzəltdiyi və bağlanma riski ilə bağlı uzun müddətdir ortaya atılan iddiaların həqiqəti əks etdirmədiyi barədə mülahizə irəli sürməyə imkan verirdi. Lakin o da bildirilirdi ki, qarşıdakı dövrün özü ilə nə gətirəcəyini proqnozlaşdırmaq mümkün deyil. Belə düşünənlərin isə yanılmadığı yola salmaq üzrə olduğumuz həftə üzə çıxdı.

Belə ki, Azərbaycan Mərkəzi Bankının göstəriciləri əsasında apardığımız hesablamalara görə, yeddi bank 2021-ci ilin II rübünü zərərlə başa vurub. Bu banklar arasında isə Əhməd Vəliyevə məxsus “Muğanbank” da var. Üstəlik, zərərin məbləği də kifayət qədər böyükdür: 1 milyon 37 min manat!



“Muğanbank”ın bağlanma riski ilə üz-üzə olduğuna dair iddialar 2019-cu ildə də meydana çıxmışdı. O zaman iddia olunurdu ki, bu bankın faiz gəlirlərinin ötən illə müqayisədə azalması bağlana biləcəyini aktuallaşdırır. Lakin bəzi iqtisadçı ekspertlər məsələyə fərqli yanaşmış və bildirmişdilər ki, 2015-ci ildəki devalvasiyalardan əvvəlki səviyyədən söhbət getməsə də, “Muğanbank” faktiki zərərdən çıxa bilib. “Düzdür, bu bankın adı tez-tez bağlanma ehtimalı olan banklar sırasında çəkilir. Ancaq bankın məcmu kapitalı hazırda 50 milyonluq məcmu kapitaldan kifayət qədər yüksəkdir, 82 milyon manatdır. Bank dövlətin ayırdığı kompensasiya ilə problemli kredit məsələsini də həll edəcək və bununla da vəziyyətini daha da yaxşılaşdıracaq” - onlar vurğulayırdılar.“Muğanbank”ın yeni ilin ilk 2 ayını ciddi məbləğdə xalis mənfəətlə başa vurması bu həmin vaxt ölkənin iqtisadi sahə üzrə ixtisaslaşan internet resursları bildirirdilər.

Qeyd edək ki, həmin ziyanın həcminə görə Vəliyevin bankı sadəcə “AccessBank”dan ( 2 milyon 159 min manat) və “Bank Avrasiya”dan (4 milyon 279 min manat) geri qalır. Bütün bunlar isə o deməkdir ki, bir zamanlar deputat da olmuş sabiq rektorun bankında işlər hələ də qaydasında getmir və o bir müddətdir medianın dilə gətirdiyi risklərdən xilas ola bilməyib.

Sonda məlumat üçün qeyd edək ki, “Oksgen” klinikası, “Odlar Yurdu” universiteti və bir çox şirkətləri olan Əhməd Vəliyevin nəzarətindəki bankın səhmdarları onun ailə üzvləridir: Mehdiyev Elmir Maqbet oğlu (63,50%, Əhməd Vəliyevin kürəkəni), Vəliyeva Vəfa Əhməd qızı (12,05%, Əhməd Vəliyevin qızı), Mehdiyev Maqbet Rəhim oğlu (13,10%, Əhməd Vəliyevin qudası, Tibb Universitetinin dosenti), Mehdiyeva Fəridə Cahandar qızı (11.35%, Əhməd Vəliyevin qudası).

***Sənan Mirzə***

# Monopolistlər bahalaşmanı davam etdirir

## Qida məhsullarının qiyməti kəskin artır, diqqətlər yenə "Azersun Holdinq"ə yönəlir



***Yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, Azərbaycanda qida məhsulları bahalaşıb. Rəsmi statistikaya əsasən, 2021-ci ilin yanvar-iyul aylarında ötən ilin müvafiq dövrünə nisbətən qida məhsulları 5 faiz artıb. Bu ilin iyul ayında qida məhsulları əvvəlki ilin iyul ayına görə 6,4 faiz, əvvəlki aya nisbətən isə 0,4 faiz bahalaşıb. Cari ilin 7 ayında ötən ilin müvafiq dövrünə nisbətən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə qiymətlər 5,1 faiz yüksəlib.***

İyulda ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri əvvəlki aya nisbətən 0,3 faiz, əvvəlki ilin iyul ayına nisbətən 6,4 faiz artıb. Ekspertlər də belə hesab edirlər ki, bu ilin 7 ayında daha çox qida məhsullarında qiymət artımları baş verib. Ərzaq məhsullarında qiymət artımları ilə yanaşı, bu ilin əvvəlində xüsusilə tütün məmulatlarının qiymətlərinin artımı da bütövlükdə inflyasiya səviyyəsinə təsir göstərib. Əgər 7 ayda illik inflyasiya səviyyəsi 4,5 faizdirsə, ərzaq məhsullarında bu, 5 faizdir, tütün məmulatları üzrə 10 faizdən çoxdur. Tütün məmulatlarında qiymət artımları həm istehlak bazarında qiymətlərin sturukturuna həm də inflyasiya səviyyəsinə birbaşa təsir göstərən faktorlardan biri olub.

Mütəxəssislərin fikrincə, ərzaq məhsulları üzrə qiymətlərin qeyri-ərzaq məhsullarına nisbətən daha çox artması ondan xəbər verir ki, xüsusən də ərzaq məhsullarının qiymətinin optimallaşdırılması, istehlak bazarında monitorinqlərin davam etdirilməsi olduqca vacibdir. Sosial şəbəkələrdə də qida məhsullarının bahalaşması mütəmadi müzakirə mövzusudur. Vətəndaşlar xüsusilə Abdolbari Goozalın rəhbəri olduğu "Azersun Holdinq"in əsasən qida məhsullarının qiymətini davamlı və kəskin şəkildə artırmasından narazıdır. Narazılıqla bərabər istehlakçılar şirkətin bahalaşma "siyasət"ində məntiq axtarır və haqlı suallar səsləndirirlər.

Məsələn: bazarın monopolist şirkəti olduğu halda "Azersun Holdinq" niyə vaxtaşırı bahalaşma ehtiyacı hiss eləyir? Bu faktiki olaraq hökuməti, onun iqtisadi siyasətini sabotaj etmək cəhdi deyilsə bəs nədir?

Üstəlik, adıçəkilən şirkətin istehsalı olan qida məhsullarının keyfiyyətində ciddi dəyişiklik yoxdur. Həmin məhsullarla bağlı hələ də istehlakçılar şübhəlidir: onların keyfiyyətcə dünya standartlarından geridə qaldığı barədə cəmiyyətdə çoxdan möhkəmlənmiş, oturuşmuş ortaq qənaət mövcuddur. Lakin monopolist şirkət olduğundan vətəndaşlar istənilən halda "Azersun Holdinq"in məhsullarına möhtacdırlar. Belədə A.Goozalın şirkətlər qrupu hansı məntiqlə mütəmadi şəkildə qiymətləri artırmaq ehtiyacı duyur?

Qeyd edək ki, dəyərləndirmələr "Azersun Holdinq"in 2017-ci ildən bu yana öz məhsullarının qiymətini dəfələrlə qaldırdığını göstərir. İctimaiyyət həmin bahalaşmadan narazı qalsa, etiraz səsini qaldırsa da, naməlum səbəblərdən aidiyyati dövlət qurumları adıçəkilən şirkətin süni bahalaşdırma siyasəti qarşısında acizlik nümayiş etdirir, bunu önləməkdə çətinlik çəkir. Son nəticədə isə zərbə sıravi vətəndaşa, onun cibinə dəyir.

Hətta ötən ilin payızında, Vətən müharibəsinin gedişində belə fürsətcilik göstərən və qiymət artımına gedən, misal üçün, 50 kq -lıq kisədə şəkər tozunu 41.50 manatdan 44.50 manata, "Final" gunəbaxan yağını 0.5 litr üçün 1.41 manatdan 1.55 manata, 1 litr üçün 2.58 manatdan 2.83 manata, 2 litr üçün 5.02 manatdan 5.53 manata bahalaşdıran "Azersun Holdinq" yetkililəri artıq adət halını alan bu addımlarını cəmiyyət üçün əsaslandırmaq məcburiyyətindədirlər.

Goozalın şirkətlər qrupu ictimaiyyətə açıqlamalıdır ki, hansı səbəbdən az qala hər ay öz məhsullarının qiymətini yüksəltmək ehtiyacı hiss eləyir?

Eyni zamanda əlaqədar dövlət qurumları da inhisarçı bir şirkətin son illərdə həftə səkkiz, mən doqquz, məhsullarının qiymətini süni şəkildə bahalaşdırması ilə bağlı açıq mövqe ortaya qoymalıdır. Unutmayaq ki, ölkə qanunvericiliyində bu cür addımların hüqiqi məsuliyyəti aydın şəkildə təsbit edilib. Kimsə özünü həmin məsuliyyətdən azad edə bilməz. Buna cəhd göstərdikdə isə məhz müvafiq dövlət qurumlarının müdaxiləsi qaçılmazdır. Kimsə azad bazar iqtisadiyyatını özfəaliyyət kimi dəyərləndirib hökuməti və onun iqtisadiyyatını sabotaj eləyir, eyni zamanda istehlakçı hüquqlarını arxa plana keçirirsə, bunun cəzasına da qatlaşmalıdır.

***Toğrul Əliyev***



## "Yeganə çıxış yolu kütləvi vaksinasiyadır" - Məlahət İbrahimqızı

***"Hər kəs anlamalıdır ki, gözəgörünməz bəladan yeganə çıxış kütləvi şəkildə peyvəndlənmədir".***

Bunu Modern.az-a Milli Məclisin deputatı Məlahət İbrahimqızı son günlər ölkədə koronavirusa yoluxma hallarının kəskin artmasından danışarkən deyib.

Onun fikrincə, insanlar nə qədər tez peyvəndlənsə, pandemiyadan o qədər tez çıxmaq olar: "Dünya koronavirus pandemiyası ilə mübarizə aparır. Təəssüf ki, bir neçə aydan sonra iki il olmasına baxmayaraq, pandemiyanın qarşısını tamamilə almaq mümkün olmayıb. Lakin inkişaf etmiş sivil dövlətlərin əksəriyyətində xəstəliyin azalmasının səbəbi mövcud tədbirlərin düzgün aparılmasıdır. Məsələn, hələ dekabr ayında İsrailin yarıdan çox əhalisi peyvəndlənmişdi. Təəssüf hissi ilə bildirirəm ki, hələ də insanların az hissəsində vaksinə qarşı müsbət fikir formalaşmayıb. Həmin insanlarda peyvəndə qarşı ümidsizlik var və müxtəlif bəhanələrlə vaksindən yayınırlar. Amma hər kəs anlamalıdır ki, bu bəladan yeganə çıxış kütləvi şəkildə peyvəndlənmədir".

Məlahət İbrahimqızı qeyd edib ki, xəstəxanalarda müalicə alan koronavirus xəstələrinin əksəriyyəti vaksin olunmayanlardır: "Bu gün xəstəxanalarda və eləcə də evdə ambulator şəraitdə koronavirusdan müalicə olunan xəstələrin əksəriyyəti peyvənd olunmayanlardır. Ona görə də biz bu gün hər kəsə peyvəndin vacibliyini vurğulamalıyıq. Koronavirusla bağlı son vəziyyət o qədər də ürəkaçan deyil. 3 milyon əhalisi olan qonşu Gürcüstanda gün ərzində 5 mindən çox yoluxma müşahidə olunur. Virus sərhəd tanımır. Mövcud durumu hər kəs gözaltına almalı və qoyulan qaydalara əməl etməlidir".

# Qaydaları pozan 554 nəfər cinayət məsuliyyətinə cəlb edildi

***Ölkədə epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena, karantin rejimlərinin pozulması ilə bağlı nəzarət-profilaktiki tədbirlər diqqət mərkəzində saxlanılır.***

DİN-in Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, daxili işlər orqanları tərəfindən koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, karantin rejimini pozmaqla xəstəliklərin yayılması üçün real təhlükə yaratma faktlarına görə, ötən ilin martından bu günə qədər 1030 cinayət (Maddə 139-1. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) işi üzrə 554 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Həmin işlər üzrə məhkəmələr tərəfindən 40 nəfər barəsində həbs, 54 nəfər barəsində isə polisin nəzarəti altına vermə, 460 nəfər haqda digər qətimkan tədbiri seçilib. Vətəndaşlara tövsiyə edirik ki, infeksiya şəraitində Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və qaydalarına hər bir şəxs ciddi əməl edərək, özlərinin və digər şəxslərin sağlamlıqlarına biganə yanaşmasınlar. Tətbiq olunan xüsusi karantin rejiminin qayda və tələblərinin mühafizəsində daxili işlər orqanları tərəfindən gücləndirilmiş nəzarət-profilaktiki tədbirləri davam etdirilir.



## Deputat: "Söymə nökər dədəmi, söyməyim bəy dədəni"

***Rusiya Liberal Demokrat Partiyasının sədri, Dumanın deputatı Vladimir Jirinovski Azərbaycanın sabiq səfiri İsfəndiyar Vahabzadəni məhkəməyə verəcəyi ilə hədələyib.***

O, bu barədə teleaparıcı Solovyovun Youtube-da canlı efiri zamanı bildirib. Qeyd edək ki, İ.Vahabzadə Jirinovskini və rus xalqını "donuz" adlandırıb.

Qeyd edək ki, İ.Vahabzadə V.Jirinovskinin Azərbaycanın ərazi bütövlüyünə və dövlət müstəqilliyinə qarşı etdiyi təhdidlərə cavab verərək bu açıqlamaları sərt tənqid edib.

Millət vəkili Aqil Abas məsələ ilə bağlı Bakıvaxtı.az-a bildirib ki, Jirnovski Vahabzadəni məhkəməyə verə bilməz: "Jirnovskinin özü məhkəməlikdir. Onun başının parası yoxdur. İsfəndiyar Vahabzadə nə deyibsə haqlıdır. Jirnovski bizim millətimizi təhqir edib, Vahabzadə də cavabını verib. Bizdə belə bir məsəl var: "Söymə nökər dədəmi, söyməyim bəy dədəni"".

# "Vaksinlənmə 70-80 faizə çatanda təhlükə azalacaq"- Deputat

***"Hazırda statistikaya baxsaq, görərik ki, dünyada virusun yayılması artan templə davam edir. Bu, yayda həm daxili, həm də xarici keçici miqrasiyaların hesabına baş verir".***

Bunu Milli Məclisin Səhiyyə komitəsinin üzvü, deputat Müşfiq Məmmədli deyib. Onun sözlərinə görə, turizm mövsümünün olması, insanların kütləvi şəkildə müxtəlif turistik bölgələrə səfər etmələri və beləcə, təmasların artması yoluxmanı çoxaldan əsas amillərdən biridir. Konkret olaraq Azərbaycana gəldikdə isə burada bir sıra spesifik səbəblər var: "Yumşalmalara gedilməsi, bəzi ictimai məkanlarda insanların toplaşmasına dair məhdudiyyətlərin aradan qaldırılması, şənliklərə icazənin verilməsi və bundan sonra toylarda insanların sıx şəkildə bir-birilə təmasda olmaları yoluxmalarda mənfi sayın yaranmasına səbəb olan amillərdən biridir,- deputat deyib,- Koronavirusa dair ümumi statistikaya nəzər salsaq, epidemioloji durumumuzu digər ölkələrə nəzərən analiz etsək, Azərbaycanda ümumi vəziyyətin bir çox ölkələrə nisbətdə idarəolunan və təhlükəli hədlərə yaxınlaşmağını görərik. Ancaq son günlərin koronavirus statistikasına baxanda yoluxma sayının artan istiqamətdə dəyişməsini görürük . Yoluxmalar bu intensivliklə davam edərsə, biz qısa müddətdən sonra artıq dördüncü dalğa ilə üz-üzə qala bilərik. Ona görə də, hazırkı vəziyyət idarə olunan olsa belə, qarşıda bir çox risk və təhlükələrlə üzləşə bilərik".

Müşfiq Məmmədli deyir ki, həm Operativ Qərargahın keçirdiyi brifinqlər, həm də səhiyyə sahəsində çalışan nüfuzlu şəxslərin, elm xadimlərinin fikirləri onu göstərir ki, yoluxmaların artması davam edərsə dövlət tənzimləyici tədbirlər həyata keçirəcək: "Çünki yoluxmanın surətini aşağı salmaq lazımdır. Burada əsas vacib amil isə vaksinasiya prosesidir. Bu gün peyvəndlənməyə daha çox diqqət ayırmalıyıq. Yoluxmaların sayı riskli həddə çatdıqda təbii ki, bəzi məhdudlaşdırıcı tədbirlər həyata keçirilə bilər. Hazırda həftəsonu nəqliyyatdan istifadə ilə bağlı məhdudiyyətlər bu sahədə atılmış mühüm addımlardan biridir. Bu məhdudiyyətlər yəqin ki, hələ bir müddət davam edəcək. İctimai məkanlarda insanların müəyyən təlimatlara daha ciddiyətlə riayət edilməsi tələb edilə bilər. Açıq havada maskadan istifadə ilə bağlı sərbəstlik verilib. Ancaq açıq hava olsa belə sıx toplaşma məkanlarında maska məhdudiyyəti təbiqi reallaşa bilər. Yaxud da yoluxmaların sayı hansı bölgədə çoxdursa, orada karantin tədbirlərinin sərtləşdirilməsi mümkündür".

Deputat Azərbaycanın hazırda vaksinasiya prosesində hər iki dozanı almış insanlarla bağlı 70-80 faizlik nəticəni əldə etməsinin vacibliyini vurğulayıb: "Ümumiyyətlə 10 milyon əhalidə hədəf kütləni nəzərə alsaq, 6-7 milyon yarım həcmində insanın hər iki dozanı qəbul etməsi lazımdır. Hazırda 20-25 faizlik həddəyik. Bu baxımdan, yoluxma potensialı olan insanlarımızın sayı kifayət qədərdir. Vaksinasiyadan keçmiş insanlarda yoluxma faizi çox aşağıdır. Onlarda ağır formalar demək olar ki, müşahidə edilmir. Amma yoluxma ehtimalı az da olsa, qalır. Peyvənd olunanlar virusa yoluxarkən onu ya çox yüngül keçirirlər, ya da daha az fəsad olur.

Heç birimiz - dövlətin icraedici strukturları, səhiyyə təşkilatları, yaxud da digər adminstrativ orqanlar qapanmaların tərəfdarı deyilik. Hər kəs normal həyata davam etməyin tərəfdarıdır və mümkün olduğu qədər qapanmalara getməməyə çalışır. Amma qapanmaların aktuallaşmaması üçün ata biləcəyimiz bir neçə addım var. Hər bir insan öz sağlamlığına diqqətlə yanaşmalı, qoruyucu tədbirlərdən geniş istifadə olunmalıdır. İkinci və ən vacib məsələ dövlətimizin digər ölkələrdən fərqli olaraq, vətəndaşları kifayət qədər həm vaksin, həm də lazımi infrastrukturla təchiz etməsidir. Bu, bizim üçün şanslı bir mühit yaradır. Ona görə də, vaksinasiya proseslərində aktiv iştirak edərək, dövlətimizin verdiyi imkanlardan geniş şəkildə yararlanmalıyıq.

# Bakıda kafe sahibi qəlyana görə həbs edildi

***Bakının Qaradağ rayonunda karantin qaydalarına zidd olaraq müştərilərə qəlyan təklif edən daha bir kafe aşkarlanıb.***

DİN-dən Unikal.org-a verilən məlumata görə, polis əməkdaşları Lökbatan qəsəbəsində yerləşən "Pub-110" adlı kafenin sahibi Emin Məmmədovun müştərilərə qəlyan verdiyi aşkar ediblər. Həmin şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilib.

Toplanmış material rayon məhkəməsinə göndərilib və məhkəmənin qərarı ilə Emin Məmmədov 8 sutka inzibati qaydada həbs edilib.

# Məmurların həbsi üçün daha bir səbəb...

## Həftənin replikası: yaşıllıqların məhvini sadəcə cərimələrlə önləmək mümkün deyil!

***Son vaxtlar istər paytaxt Bakıda, istərsə də müxtəlif bölgələrdə ağacların qanunsuz kəsilməsi, yaşıllıqların məhv edilməsi ilə bağlı xəbərlər yenidən intensivləşib. Bu hallar ayrı-ayrı məmurların gözü qabağında, onların məlumatı daxilində, hansısa maraqlar naminə qeyri-rəsmi razılıq verilməsi müqabilində baş verir. Buna şübhə yoxdur!***

Çünki adi vətəndaş öz şəxsi evinin qapı-pəncərəsini dəyişərkən belə ayrı-ayrı qurumların əməkdaşları qəfil peyda olub bunun "qanunsuzluğu" ları ilə gizli bazarlıq qururlar və ağacların doğranmasını görməzdən gəlirlər. Başqa cür mümkün deyil" - müstəqil ekspertlərin mövzu ilə bağlı bu qəti qənaətinə cəmiyyətin heç bir şübhəsi yoxdur.

Bəli, medianın illərdən bəridir "yaşıl genosid" adlandırdığı ağc kəsimləri, yaşıllıqların məhvi məsul dövlət qurumlarının, özəlliklə də, yerli icra hakimiyyətlərinin gözü qarşısında baş verir, lakin nə sirri-xudadırsa, onlar təbiətə, ağaclara qarşı "soyqırım"ı səssiz şəkildə seyr etməklə kifayətlənirlər. Yaşıllıqlar qırılıb ağaclar kəsildikdən sonra yerlərində malıdır.

Təbiətə qəsdin dövlət büdcəsinə qəsd qədər təhlükəli, dəhşətli əməl olduğu unudulmamalı, bunu anlamaqda çətinlik çəkən vəzifəli şəxslərin - icra başçısından tutmuş ən aşağıdakı məmuracan!-yeri dəmir barmaqlıqların arxası olmalıdır. Əks halda biz ağacların qanunsuz kəsildiyi, yaşıllıqların qeyri-qanuni məhv edildiyi barədə ürəkağrıdan xəbərləri hələ çox oxuyacağıq...

Üstəlik, ötən illərin təcrübəsi onu göstərir ki, "yaşıl genosid"lə bağlı kimlərinsə müəyyən məbləğdə cərimələnməsi effektsizdir. Çünki həmin



barədə moizə oxumağa başlayırsa, bir anda onlarla ağacın, iri yaşıllığın məhvindən məmurların xəbərsizliyi, sadəcə, mümkünsüzdür.

Elə mütəxəssislər də bu fikirdədirlər. Onlar dəfələrlə vurğulayıblar ki, tikinti şirkətlərinin, başqa özəl şirkətlərin, iş adamlarının bir çox hallarda xəlvəti, üstəlik, vətəndaşların narahatlıqlarına, narazılıqlarına baxmayaraq, həyata keçirdikləri "yaşıl soyqırım" əslində məhz məmurlarla, icra hakimiyyətləri ilə gizli sövdələşmə əsasında baş tutur. "İcra hakimiyyətlərinin xəbəri olmadan sıravi vətəndaş daşı -daş üstə qoya bilmir. Dərhal gəlib onun başının üstünü kəsdirirlər ki, qanunsuzdur. İndi necə olur, nəhəng ərazilərdə yaşıllıqlar kəsilir, yerində böyük inşaat işləri aparılır, amma icra başçılarının xəbəri olmur?! Bu əlbəttə, ağ yalandır. Onlar iş adamticarət obyektləri, göydələnlər və s. inşa edildikdə, yaxud kəsilən ağacların taxta sexlərinə daşındığı ortaya çıxdıqda isə "xoruzun quyruğu" görünür.

Heç bir şübhə qalmır ki, icra başçıları ilə, onların işçiləri ilə anlaşan işbazlar, "yaşıllıq qatilləri" məhz bundan cəsarətlənərək təbiətin qəniminə çevirilirlər. Necə deyərlər, "əl əli yuyur, əl də üzü..."

Ağaclara, yaşıllıqlara belə münasibət ən azı korrupsiya, rüşvətxorluq qədər ağır cinayətdir. Ona görə də Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) cəmiyyətdə təqdirlə qarşılanan xüsusi əməliyyatları nəticəsində icra başçıları, digər müxtəlif vəzifə sahibləri təkcə dövlət vəsaitlərini talan etdiklərinə, vətəndaşı soyduqlarına görə yox, həm də ağacları, yaşıllıqları özlərinin və işbazların maraqlarına, mənfəətlərinə qurban verdikləri üçün qandallanadamlar üçün 2-3 min manatlıq cərimələr "semiçka Pulu"dur. Təsəvvür edin, hansısa tikinti oliqarxı, yaxud başqa bir iş adamı göydələn, ticarət obyekti tikmək üçün yüz minlərlə, milyonlarla manat xərcləyir, elə isə həmin göydələn, ticarət obyekti üçün kəsdiyi ağaclara, qırıb-çatdığı yaşıllıqlara görə bir neçə min manat cərimə ödəmək həmin şəxslər üçün niyə problem olmalıdır?!

Artıq bu qanunsuzluqlara görə daha sərt addımların atılması, məsələn, qeyd-şərtsiz cinayət məsuliyyətinin müəyyənləşdirilməsi və həbs qərarının verilməsi qaçılmazdır.

Yoxsa yaşıllıqların məhvini sadəcə cərimələrlə önləmək mümkün deyil! Əslə mümkün deyil! Bunu biz demirik, təcrübə deyir. Təcrübəyə isə inanmaq və güvənmək lazımdır...

***Toğrul Əliyev***

## İstiqamət: elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Təhsil Tələbə Krediti aztəminatlı ailələrə ali təhsili əlçatan edəcək

## İlqar Orucov: “”Bu təhsil almaq istəyən imkansız ailələrə dövlətin böyük dəstəyidir”



***Azərbaycanda 7 ildə 5 min tələbə təhsil haqqını ödəyə bilmədiyinə görə universitetlərdən xaric edilib. Bu rəqəm ölkəmizdə tələbələrin təhsil haqlarının ödənilməsinə dəstək mexanizmləri üzərində düşünməyə kifayət qədər əsas verirdi. Elə bu günlərdə baş nazir Əli Əsədovun təsdiq etdiyi ”Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası” da bu məqsədlə hazırlanmış sənəddir.***

Bəs görəsən, təhsil tələbə krediti təhsil haqqını ödəməkdə çətinlik çəkən tələbələrə dəstək ola biləcəkmi?

Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi İlqar Orucov deyir ki, Təhsil Tələbə Krediti Fondunun yaradılması, tələbələrə, tələbə kreditlərinin verilməsi gənclərin təhsilə əlçatanlığının təmin olunmasına xidmət edən addımdır. O, bunun təhsil almaq istəyən tələbələrə dövlət tərəfindən göstərilən böyük qayğı olduğunu söyləyir. İ. Orucov deyir ki, bu gün ölkəmizdə xeyli sayda tələbə təhsil haqqını ödəyə bilmədiyinə görə ali məktəblərdən xaric olunub. Bu baxımdan İ. Orucov Təhsil Tələbə Krediti Fondunun yaradılmasının sosial baxımdan həssas olan ailələrin övladlarının təhsilinə dəstək olacağını söyləyir. Onun sözlərinə görə, güzəştli şərtlərlə təhsil kreditlərinin verilməsi tələbələrin ali təhsil almasına imkan yaradacaq: “Bu gün aztəminatlı ailələrdə təhsil haqqının ödənilməsinə görə yaranmış çətinlik bəzən gənclərin ali təhsil almasına mane olur. Tələbələrin bu Fondun imkanından bəhrələnməsi sayəsində onlar ali təhsil ala biləcəklər. Dövlətin təhsil sahəsində donor kimi çıxış etməsi alqışlanandır”.

Təhsil üzrə tanınmış ekspert Kamran Əsədov da verilmiş qərarın alqışlanan olduğunu söyləyir. O, bildirir ki, bu günə qədər Azərbaycanda tələbələrə güzəştli kreditlərin verilməsi mövcud olmayıb. İndiyə qədər tələbə krediti adı altında fəaliyyət göstərən təşkilatlar isə özünü doğrultmayıb: “2013-cü ildə ”Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası”nda Təhsil Tələbə Krediti Fondunun yaradılması nəzərdə tutulub. Avropa ölkələri və ABŞ, postsovet məkanından isə Rusiya, Ukrayna, Belarus, Qazaxıstan və Özbəkistan təhsil kreditləşməsini tətbiq edir. Azərbaycanda da tələbələrə təhsil kreditlərinin verilməsi müsbət addımdır”.

K. Əsədov onu da deyir ki, ”Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası”nda bir sıra məqamlar var ki, bu da tələbələrə tələbə kreditlərindən faydalanmaq imkanı verəcək: “”Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası”nda göstərilib ki, üçüncü qrup əlil olan şəxslər və valideynlərindən biri üçüncü qrup əlil olanlar tələbə kreditindən yararlana bilər. Bu kateqoriyaya valideynləri rəsmi işsiz olan şəxslər də daxildir. Qaydada öz əksini tapan mühüm məqamlardan biri də ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) 71-dən yuxarı olanların tələbə kreditindən bəhrələnə biləcəyi ilə bağlıdır. Mən çox arzu edərdim ki, ümumi orta müvəffəqiyyət göstəricisi 60-70 olan tələbələr də bu imkandan istifadə etsin”.

Ekspert bildirir ki, təhsil tələbə kreditlərindən hazırki qayda ilə ancaq əyani təhsil alan tələbələr yararlanacaq: “Amma çox yaxşı olardı ki, qiyabi təhsil alan tələbələr də tələbə kreditlərindən istifadə edə bilsin”.

Onu da qeyd edək ki, Təhsil naziri Emin Əmrullayev Təhsil Tələbə Krediti Fondundan kredit alması nəzərdə tutulan tələbələrin təxmini sayını açıqlamışdı. Nazir bildirmişdi ki, təxminən 40 min və ya daha çox bakalavr və magistr tələbəsinin Təhsil Tələbə Krediti Fondundan kredit alması nəzərdə tutulur. Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi qaydasında kreditin növləri, istifadə hüququ, onun qaytarılması, sığorta və digər məsələlər əks olunub. Həmin sənədə görə, təhsil tələbə kreditinin iki növü var- sosial, standart... Ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri, 3-cü dərəcə əlilliyi olanlar,hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) 1-ci və ya 2-ci dərəcə əlilliyi olanlar, işsiz kimi qeydiyyatda olanla, yaşa görə əmək pensiyası alanlar, yaşa görə sosial müavinət alanlar tələbə kreditindən istifadə edə bilər. TTK-nin verilməsinə dair məsələlərin tənzimlənməsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin ”Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”ndə ”Təhsil Tələbə Krediti” alt sistemi (bundan sonra - elektron sistem) vasitəsilə həyata keçirilir.

Xatırladaq ki, iyunun 18-də əhalinin aztəminatlı təbəqələrindən olan şəxslərin təhsilə əlçatanlığını təmin etmək, təhsil almaqda bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə Prezident İlham Əliyev ”Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Fərman imzalayıb. Fondun nizamnamə kapitalının məbləği 80 milyon manat təşkil edir. Fərmana əsasən, Fond təhsil tələbə kreditlərinin verilməsini təşkil edən qeyri-kommersiya hüquqi şəxsdir.

***Gülayə Məcid***



# Zəngəzurun Comardlı kəndi - Heydər Əliyevin ata yurdu

***Comardlı Azərbaycanın ümummilli lideri Heydər Əliyevin ata yurdudur. Bu kənd Zəngəzur dağlarının qoynunda yerləşir. Füsunkar təbiəti, başı qarlı dağları, buz bulaqları, sıx meşələri ilə insanı heyrətləndirən yurd yeridir. Bir neçə il əvvəl Comardlının tarixi keçmişi haqqında məqalə yazmaq istəyirdim. Səbəb isə Zəngəzur kitabı haqqında materiallar toplayarkən bir sıra mənbələrdə bu kənd haqqında tutarlı dəlillərə rast gəlməyim oldu.***

Zəngəzur Azərbaycan türkünün qədim yurdudur. Müasir Türkiyə və Azərbaycan türklərinin tarixdə bir neçə ortaq dövləti olub, yəni vahid türk dövləti. Bu möhtəşəm dövlətlərdən biri də Böyük Səlcuq dövlətidir. XI əsrin ortalarında Sultan Toğrulun və Alp Arslanın hakimiyyəti dövrlərində bu dövlətin Cənubi Qafqazda nüfuzu güclənir. Bu türk dövlətinin şimal sərhədi Şimali Qafqazdan, cənubda İran körfəzinə qədər geniş coğrafiyanı əhatə edirdi. Alp Arslan Göyçə gölü və Naxçıvan da daxil olmaqla Azərbaycanın bütün şimal-qərb torpaqlarını Böyük Səlcuq dövlətinin tərkibində birləşdirir. Bu zaman Zəngəzurun Alban-Qıpçaq əsilli xristian hakimləri təbəəliyi qəbul edirlər. 1072-ci ildə hakimiyyətə gəldiyi ildə sultan I Məlikşah Zəngəzuru idarə etmək üçün buraya öz canişinini göndərir. 1192-ci ildə I Məlikşahın ölümündən sonra mərkəzi hakimiyyət uğrunda mübarizə güclənir. Bundan istifadə edən bir sıra yerli xristian hakimləri fəal siyasət yürütməyə cəh edirlər. Onları cəzalandırmaq üçün Oğuz sərkərdələri bir sıra tədbirlər görürlər. 1103-cü ildə Oğuz türkü olan sərkərdə Comard (Comərd) öz qoşunu ilə Qafan və Qarakilsə ərazilərində asayişi bərpa edir. Bu şəxsin adı XIII əsrdə yaşamış Zəngəzurun xristian keşişi Stefan Orbelinin “Zəngəzur əyalətinin tarixi” adlı əsərində çəkilir.

Qeyd edək ki, bu əsər XVIII əsrdə Venesiyada Sen-Lazar erməni mxitarist monastırında saxtalaşdırılaraq “Sünik tarixi” adı ilə çap olunmuşdur. S. Orbelinin əsərinin ermənicə saxta nəşrində Comard adı Çortman kimi verilmişdir. Hətta ermənilər tərəfindən saxtalaşdırılmış bu mənbədə Comardın 1104-cü ildə Orotn, 1105-ci ildə isə Bxen qalalarında möhkəmlənməsindən bəhs edilir. Burada “Orotn” Urud kəndinin, “Bxen (Baghk)” isə Bağ qalasının erməni saxtakarlığına məruz qalan adlarıdır. Bu mənbədə həmçinin Çalyurd oymağının adı “Çlorut”, Qacaran oymağının adı “Karcavan”, Muğ boyunun yurdu olan Meğrinin adı isə “Megri” kimi qeyd edilir. Beləliklə, məlum olur ki, ermənilər tarixi gerçəkləri nə qədər saxtalaşdırsalar da, Zəngəzurun yer-yurd adlarını və bu ərazinin əsl sahiblərinin Azərbaycan türkləri olduğunu ört-basdır edə bilməzlər.

1918-ci ilin iyul ayında Andranikin erməni quldur dəstəsi Comardlı kəndini viran qoyur, bu hadisə nəticəsində Comardlı kəndinin dinc əhalisi, eləcə də ümummilli lider Heydər Əliyevin yaxın qohumları qətlə yetirilir. Bu hadisə Comardlı soyqırımı adı ilə tariximizdə həkk olunub.

***Ramin Əlizadə***
***AMEA-nın Tarix İnstitutunun böyük elmi işçisi***

Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.



# Adı ürəklərə yazılan igid Təbriz

*Qarabağımızın azadlığı uğrunda gedən 44 günlük müharibədə canı, qanı bahasına torpağını qoruyub şəhidlik zirvəsinə ucalan Vətənin igid övladlardan biri 1994-cu ildə Lerik rayonunun Ləkər kəndində dünyaya göz açmış Təbriz Məhərrəməli oğlu Talıbovdur. El-obaya bağlılıq, vətənpərvərlik, xalqına fayda vermək əzmi əzəldən Talıbovların həyat kredosuna çevrilib. Buna görə də yaşadığı cəmiyyət tərəfindən ailənin hər üzvü həmişə dərin məhəbbətlə, ehtiramla qarşılanır. Belə bir saf mühitdə tərbiyə alan Təbriz müstəqil ömür yoluna başlayanda içindəki torpaq yanğısı, yurd təəssübkeşliyi ötüb keçən hər gününə ilahi bir sevgi gətirir. Nəyə əl qoyursa, hər şey gözəl alınır. Günlər bir-birindən mənalı keçsə də, amma erməni dığalarının Qarabağ torpaqlarına ədalətsiz təcavüzü Təbrizə çox ağır gəlir.*

Bəli, öz yaşıdlardan fərqli düşünən, yaşayan, Vətənini hər şeydən üstün bilən Təbriz elə həqiqi hərbi xidmətə düşməndən qisas almaq məqsədilə gedir. Cəbhə bölgəsində xidmətə başlayır. Odlar yurdu Azərbaycanın müdafiəsi naminə hərbi əməliyyatlarında öz fəallığı, cəsarət ilə fərqlənir, vətən qarşısında oğulluq borcunu ləyaqətlə yerinə yetirir. Və yurdunun daşını, torpağını sevməklə hər an ona qurban getməyə hazır durur, düşməndən qisas alınan gününü gözləyir.

Təbriz həqiqi xidmətdən sonra bir müddət ata-anasına kömək edir. Doğma kəndinin tərəqqisinə yalnız xeyir verir, hər bir işdə mərdlik, insanpərvərlik, xeyirxahlıq nümunəsi göstərir. Qaldı ki, Qarabağın ağrı-acısına dözə bilmir, 2015-ci ildə yenidən müddətdən artıq hərbiyə gedir. Çavuş rütbəsində yurdunun hər qarışına can qoyur, öz igidliyi ilə əsgərlər arasında ruh yüksəkliyi yaradır, onlarda vətənə, torpağa məhəbbət hissi aşılayır. Məqamında dığalara yerini göstərmək üçün hərbi bilik və bacarığını artırır. 2016-ci ilin Aprel döyüşlərində çoxsaylı qəhrəmanlıq nümunəsi göstərir, onun kimi igidlərin hesabına ordumuz düşmənə qalib gəlir, kiçik gizir rütbəsinə layiq görülür.

Ötən ilin sentyabrında Qarabağın azadlığı naminə Vətən müharibəsinə Təbriz birincilər sırasında qoşulur. İlk günlərdə yağı düşmənə böyük itkilər də verir. Ağdamın, Cəbrayılın, Zəngilanın azad olmasında ağır müharibə meydanından keçir, hər dəfə də qəhrəmanlığı əsgər yoldaşlarını qələbəyə doğru aparır. Döyüşdə düşmənə sarsıdıcı zərbələr vuraraq əzəl, əbədi doğma Azərbaycan torpaqları azad olunduqca ürəyi dağa dönür, daha irəliyə can atır. Oktyabrin 23-də döyüş meydanından qaçan namərd erməni dığaları fürsətdən istifadə edib Təbrizin Vətən məhəbbətli ürəyini nişan ala bilir. Beləcə şərəfli bir ölüm onu öz ağuşuna basır. Vətən yolunda şəhid olan Təbriz xalqın qəlbində əbədi məskən salmaqla, adını hərb tarixinin salnaməsinə qızıl hərflərlə yazır.

Təbrizin 3 yaşında Mələk, 2 yaşında Kifayət adında qız uşaqları böyüyür. Həyatın ən ləyaqətli vətəndaşı olmaqla onlar ömür boyu ataları ilə fəxr edəcək və onun misilsiz hünərinə verilən 3-cü dərəcəli " Vətənə xidmətə görə" ordenə, "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medallarına baxıb qürur duyarlar.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Ağdamda bir "Osman təpəsi" var - Bilinməyən Şəhidlər məzarlığı...

***Azərbaycanda oluqca çoxlu tayfa, xalq, nəsil, şəxs adlarını daşıyan mikrotoponimlər var. Məlum olduğu kimi, toponimlər tarixi baxımdan ən etibarlı məxəz olmaq əhəmiyyətinə malikdir. Ona görə ki, zamanın amansız siyasi-ictimai hadisələri ən çox yazılı mənbələri məhv etdiyi halda, onlara nisbətən toponimlər uzunömürlü olur. Ancaq makrotoponimlərdən fərqli olaraq, yerlərdən yazılı şəkildə qeydə alınmayan mikrotoponimlər tez unudulub sıradan çıxır. Lakin unutmaq olmaz ki, mikrotoponimlərdə də xalqın tarixi, dili, mədəniyyəti və həyat tərzi yaşamaqdadır... Belə toponimlərdən biri də "Osman təpəsi"adı ilə məlum olan mikrotoponimdir.***

Ağdam bölgəsinin Əlimədədli icra nümayəndəliyi ərazisində "Osman təpəsi" deyilən tarixi bir məkan var - Şəhidlər qəbiristanlığıdır. "Osman təpəsi" mikrotoponimi Xaçın çayının sol sahilində Tayırrar qışlağı, Məşədi Qurban - Salman bəy dəyirmanı tuşunda yerləşir. Xaçın çayının sağ sahilindəki XIV əsr Sarı Musa türbəsi, Cinli kəndi ilə üzbəüzdür. Cinli kəndinin üstündəki yüksək Fərrux adlanan dağ ətəyində isə erməniləşmiş alban tayfası yaşayan kənddən erməni vandalları həmişə aşağı ərazidə - Kolanı tayfasına mənsub Cinli, Əlimədədli, Əliağalı, Xaçındərbənd, Mollalar, Kürdlər, Kəngərli azərbaycanlılar yaşayan kəndləri atəş altında saxlayıblar...

Tarixə qısa ekskurs etsək, əvvəlki əsrləri hələ demirik, xüsusən, keçən əsrin əvvəllərində Azərbycan, Bakı qəzası, o cümlədən Qarabağ erməni terroruna və işğalına məruz qalanda ilkin bizə yardıma qaçan Omanlı Türkiyəsi olub. 1918-ci ildə Bakının azad edilməsindən sonra Nuru Paşa başda olmaqla əsas özəyi Osmanlı döyüşçülərdən ibarət olan Qafqaz İslam Ordusu Qarabağ, Şuşa istiqamətində erməni barbarları ilə mübarizə aparıb. Mənbələrdə göstərildiyi kimi, 1918-ci il noyabrın 1-də Nuru Paşa Ağdama gələrək döyüş hazırlıqlarına başlayıb, noyabrın 4-də Əsgəran-Şuşa istiqamətində və Xaçın çayı boyunca yerləşən erməni işğalçılarının mövqelərinə hücüm əməliyyatı həyata keçirib. Fərrux, Daşbaşı, Sırxavənd, İsmayılbəyli, Ballı qaya, Koladəy, Dovşanlı, Vəng istiqmətlərində də erməni daşnakları ilə Qafqaz İslam Ordusu arasında qızğın döyüşlər gedib. Qafqaz İslam Ordusuna məxsus 9-cu və 106-cı türk alaylarının mühüm bir qismi və qərərgahı Xaçın kənarında əvvəllər bağlı-bağatlı yerdə mövqe tutmuşdu. Bu yer sonradan xalq arasında "Osman təpəsi" adlanıb. Buradan Yeddixırman, Fərrux dağı və Vəngə qədər Xaçınboyu kəndləri asanlıqla nəzarətdə saxlamaq və idarə etmək olurdu...

Qocaların dediyinə görə, "Osman təpəsi" adlanan yerdə salınan Şəhid qəbiristanlığı 1918-ci ildə Qarabağı talan edən erməni silahlı qüvvələrindən xilasa gələn Osmanlı qoşunlarının şəhidlərinə məxsus olub və xalq arasında "Osman təpəsi" adlandırılıb. Onu da qeyd edək ki, Türk qoşunlarının sərkərdələrindən olan Nuru Paşanın, Mürsəl Paşanın, Cahid Cəmil bəyin, İsmayıl Hakkı bəyin adları Azərbaycanda, Qarabağda, Ağdamda olduqca məşhur idi və xalqın bu sərkərdələrə məhəbbəti və hörməti heç vədə sönmədi...

Xalq, sadə camaat Sovet dönəmində belə, bu məhəbbəti qorumaq üçün övladlarına Osman, Nuru, Mürsəl, Cahid, Cəmil, Hakkı, Paşa, İsmət, Mustafa, Kamal, Rəfiq, Yılmaz, Adnan, Amir, Aqşin, Ayvaz, Çələbi, Bülənt, Cövdət, Əmirə (Emre), Ərtoğrul (Toğrul) və s. bu kimi türk adlarını fərəh və şərəflə qoyur, bununla da, araya nifaq salmaq istəyən qüvvələrin açığına Türk qardaşlarına məhəbbətlərini qoruyub saxlayırdılar. Yadımdadır ki, təkcə bizim kəndlərdə onlarla Osman, Nuru, Paşa, Kamal (Kemal), Mustafa, Midhət, Nihad, Timur, Teyfur (Tayfur), Turan, Turqut, Türkeş, Temir, Yavuz adlarını daşıyanlar var idi. Bəlkə də, Azərbaycanda yeganə Hakkı adını daşıyan tanınmış ziyalı, müəllim, məktəb direktoru olmuş Ağdamın Ətyeməzli kəndindən Hakkı müəllim idi...

Bu adların hamısı, xüsusən sovet dönəmində toplumda, cəmiyyətdə özlüyündə tarixi-sosial və kulturoloji məna və mahiyyət, status daşıyır, örtülü, gizli şəkildə olsa da, xalqın ümid və arzularının, ideallarının daşıyıcısı olur, türk xalqları dostluğunun, türkçülük yaddaşının qoryucusuna, himayəçisinə çevrilirdi... Çünki, ən qədim tarixdən, Dədəd Qorqud dönəmindən üzübəri ad qoymanın Türk mədəniyyətində olduqca böyük milli-mənəvi, əxlaqi önəmi olub...

"Osman təpəsi" yer adının qorunub saxlanması da, bu idealın, məhəbbətin təzahürlərindən biri idi... İnanırıq ki, indi - Qarabağın erməni işğalından azad olunması uğrunda qələbə ilə nəticələnən 44 günlük Vətən müharibəsindən sonra yüzlərlə azərbaycanlı körpəyə bizim qələbə müjdəmizdə əvəzsiz rol oynamış Ərdoğan, Hulusi, Akar, Mövlud, Çavuş, Selcuq, Bayraqdar, Akınçı adları qoyulacaqlar...

Cinli kəndinin sayılan-seçilən ziyalılarından, birinci Qarabağ müharibəsində üç il sərasər bölük və batalyon komandiri olan, Qarabağ müharibəsi veteranı, hazırda Sumqayıtda yerləşən Ağdam köçgün məktəbinin direktoru Quliyev Adil Vəli oğlu söyləyir ki, "keçən əsrin 80-ci illərinin əvvələri idi. Məni, gənc komsomolçunu M.F.Axundov adına üzümçülük sovxozunda, o vaxtalar dəbdə olan "Gənc komsomolçular briqadası"na başçı - briqadir seçmişdilər, üzüm - tənək bağları salır, geniş bağ sahələrinə xidmət edir, bol da məhsul götürürdük. "Osman təpəsi" adlanan yer də bizim xidmət sahəmizə düşürdü... Bağ sahəsini genişləndirmək adı ilə rəhbərlikdə olan hansı-



sa qaragüruhçunun ağlına düşmüşdü ki, bu təpəni şümladıb əkin sahəsinə çevirsin... O vaxtlar biz şəhid qəbristanlığı adını bilmirdik, amma onu bilirdik ki, bu təpədə vaxtilə bizi erməni qırğınlarından xilasa gələn türk qoşunundan həlak olan döyüşçülər dəfn olunub və ağıldankəm kimsə əkin sahəsini genişləndirmək adı altında bu müqəddəs təpəni məhv etmək fikrinə düşübdür... Uzun sözün qısası, biz gənclər qəti etiraz etdik ki, bura qəbiristanlıqdır və oradan götürüləcək məhsul da haramdır. Bizi çək-çevirə saldılar, az qala ideoloji səbatsızlıqda günahlandırdılar, yolumuzdan çəkilmədik, kənd ağsaqqalları da bizi müdafiəyə qalxdılar, rayon rəhbərliyndən də anlaşıqlı yanaşmalar oldu...

Onu da deyim ki, bizim mövqeyimizdə duran bütün traktorçülar da o yeri şumlamaqdan imtina etdilər. Haradansa bir erməni tapıb gecə ilə şum atmğa başlamışdılar, vaxtında xəbər tutduq, qarşısını aldıq. Gödək bir şum şırımından xeyli giliz, insan sümükləri çıxmışdı, təzədən onları həmin yerdə basdırdıq... İndi həmin təpə - "Osaman təpəsi" durur".

Bəli, şükürlər olsun ki, bu tarixi şəhidlik məzarlığı durur... Bu məkan, başqa belə müqəddəs yerlər Türk qardaşlığının, Türkiyə - Azərbaycan qardaşlığının pozulmaz tarixi faktlarından biridir...

2021-ci il iyunun 15-də Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğanla Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şüşadakı möhtəşəm görüşü və "Şuşa Bəyannaməsinin" imzalanması da bu tarixi ənənənin müqəddəsliyə və əbədiliyə söykənən davamıdır, həmçinin hər iki dövlətin humanist, ədalətli və vicdanlı social siyasətinin bəhrəsidir...

Dediyimiz, təklifimiz budur ki, Ağdamın Əlimədədli kəndində yerləşən "Osman təpəsi" adlanan bu tarixi şəhidlik məzarlığı Türkiyə-Azərbaycan arxeoloqları, mütəxəssisləri tərəfindən tədqiq olunsun, mümkün qədər şəhidlərin şəxsiyyətinin müəyyənləşdirilməsi aparılsın. Və bu şəhidlər məzarıstanı tarixi abidə kimi təsbit edilərək qorunsun, ziyarətgaha çevrilsin...

Allah cəmi şəhidlərimizin ruhunu şad eləsin! Amin!!

***Qurban Bayramov, tənqidçi-ədəbiyyatşünas***
***08.08.2021.***

# Fərdi sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlər məcburi sosial sığortaya cəlb edilirlər

***Qanunvericiliyə görə fərdi sahibkarlar məcburi sosial sığorta (MDSS) haqqını minimum əməkhaqqına nisbətən müəyyən faizlə hesablayıb ödəməlidirlər. Bu faiz fərdi sahibkarın fəaliyyət göstərdiyi sektora görə dəyişir.***

"Unikal" Dövlət Vergi Xidmətinə istinadla xəbər verir ki, mövzu ilə bağlı şərh verən iqtisadçı ekspert Radil Fətullayevin sözlərinə görə, qanuna əsasən, tikinti sahəsində fəaliyyət göstərən fərdi sahibkarlar minimum aylıq əməkhaqqının 50 faizi miqdarında, mülki-hüquqi xarakterli müqavilələrlə işləyən (fərdi sahibkarlar istisna olmaqla) şəxslər üzrə hesablanmalı MDSS ödəmə mənbəyindən tutulmaqla gəlirlərin 25 faizi miqdarında, xüsusi notariuslar minimum aylıq əməkhaqqının on mislinin 25 faizi miqdarında, müəlliflik qonorarı ödəyən hüquqi və fiziki şəxslər üçün hesablanmış qonorar məbləğinin 15 faizi miqdarında, vəkillər kollegiyasının üzvləri, sərbəst auditorlar, sərbəst mühasiblər - gəlirlərinin (xərclər çıxılmaqla) 10 faizi miqdarında MDSS-yə cəlb edilməlidir.

R.Fətullayev bildirib ki, qeyd edilənlər fərdi sahibkarın gəlir əldə etdiyi (fəaliyyəti olduğu) ay üzrə hesablanır.

Əgər sahibkar hər hansı bir ayda gəlir əldə etməyibsə, o zaman MDSS ödəməyə ehtiyac yoxdur.

Fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan fiziki şəxslər üçün aylıq MDSS haqqı aşağıdakı qaydada hesablanır:

Toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət - minimum aylıq əməkhaqqının 5 faizi miqdarında;

Fərdi foto, audio-video xidmətləri (fotostudiyalar istisna olmaqla) sahəsində fəaliyyət - minimum aylıq əməkhaqqının 5 faizi miqdarında;

Çəkməçi, pinəçi - minimum aylıq əməkhaqqının 3 faizi miqdarında;

Saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri - minimum aylıq əməkhaqqının 3 faizi miqdarında;

Fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşpaz, gözətçi və iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslər (ofisiant) - minimum aylıq əməkhaqqının 3 faizi miqdarında;

Nəqqaşlıq emalatxanalarının fəaliyyəti - minimum aylıq əməkhaqqının 3 faizi miqdarında;

Fərdi qaydada bərbər fəaliyyəti ilə məşğul olan şəxslər - minimum aylıq əməkhaqqının 3 faizi miqdarında;

Fərdi qaydada dərzi fəaliyyəti ilə məşğul olan şəxslər - minimum aylıq əməkhaqqının 3 faizi miqdarında.

Qeyd olunan fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslər üçün aylıq sosial sığorta haqqının məbləği Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) - 2,0, Abşeron rayonunda, Sumqayıt və Gəncə şəhərlərində - 1,5, digər şəhər və rayonlarda - 1,0 əmsallar tətbiq edilməklə müəyyən olunur.

Mülkiyyətində kənd təsərrüfatına yararlı torpağı olan və onu istifadə edən fiziki şəxslər və ailə kəndli təsərrüfatları əmək qabiliyyətli ailə üzvlərinin hər biri üçün məcburi dövlət sosial sığorta haqqı ödəməlidirlər. Belə ki, bu zaman MDSS torpağın sahəsindən asılı olaraq, minimum aylıq əməkhaqqının aşağıda göstərilən dərəcələri üzrə hesablanmalıdır:

- 5 hektaradək olduqda - minimum aylıq əməkhaqqının 2 faizi miqdarında;
- 5 hektardan 10 hektaradək olduqda - minimum aylıq əməkhaqqının 6 faizi miqdarında;
- 10 hektardan yuxarı olduqda - minimum aylıq əməkhaqqının 10 faizi miqdarında.

Mülkiyyətində torpaq sahəsi olan şəxs, eyni zamanda, digər sahələrdə də işləyib MDSS ödəyirsə, bu ödəməyə cəlb olunmurlar. Bundan əlavə, I və II dərəcə əlilliyi olan şəxslər, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar və pensiya yaşına çatmış şəxslər də MDSS-yə cəlb olunmurlar.

Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada "Fərqlənmə nişanı" alan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergiödəyiciləri isə minimum aylıq əməkhaqqının 6 faizi miqdarında MDSS ödəməlidirlər.

# Pərakəndə ticarətlə məşğul olan vergiödəyicilərinə hansı hallarda maliyyə sanksiyası tətbiq edilir?

***ƏDV-nin geri qaytarılması yalnız ƏDV ödəyicisi olan pərakəndə ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergiödəyicilərindən alınmış mal və xidmətlərə aid edilir. ƏDV-nin müvafiq qaydada geri qaytarılması yalnız NKA çekinin üzrəindəki Fiskal ID və malın sürətli məlumat kodu (Quick Response Code) vasitəsilə mümkündür və bu səbəbdən istehlakçılar aldıqları mal və xidmətlərə görə kassa çekini əldə etməlidir.***



"Unikal" Dövlət Vergi Xidmətinə istinadla xəbər verir ki, nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek təqdim etmək və həmin çeklərdə qanunvericiliklə müəyyən edilmiş məlumatların əks etdirilməsini təmin etmək pərakəndə ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərin vəzifəsidir.

Vergi Məcəlləsinə əsasən, vergiödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərlə pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına, yəni nəzarət-kassa aparatları və ya ciddi hesabat blankları tətbiq edilmədən vergi orqanlarında qeydiyyatdan keçirilməmiş və ya texniki tələblərə cavab verməyən nəzarət-kassa aparatlarından istifadə etməklə əhali ilə pul hesablaşmalarının aparılmasına, nəzarət-kassa aparatlarından istifadə edilməsi dayandırıldıqda əhali ilə pul hesablaşmalarının qeydiyyatının aparılması qaydalarının pozulmasına görə vergiödəyicisinə təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 1000 manat məbləğində, ikinci dəfə yol verildikdə 3000 manat məbləğində, üç və daha çox dəfə yol verildikdə isə 6000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.



## Maliyyə Nazirliyinin istiqrazlarının yerləşdirilməsi üzrə hərrac keçiriləcək

***Avqustun 17-də Bakı Fond Birjasında (BFB) Maliyyə Nazirliyinin dövlət ortamüddətli istiqrazlarının yerləşdirilməsi üzrə hərrac keçiriləcək.***

BFB-dən "Unikal"a bildirilib ki, faizli, ortamüddətli dövlət istiqrazlarının ümumi həcmi 10 milyon manat, nominal dəyəri 100 manat, faiz dərəcəsi 6,5 faiz, tədavül müddəti 1092 gündür. İstiqrazlar 2024-cü il avqustun 13-də ödəniləcək. "PAŞA Kapital" İnvestisiya Şirkəti QSC anderrayter vəzifəsində çıxış edir.

Hərrac zamanı qeyri-rəqabətli sifarişlərin istiqrazların buraxılışının 20 faizdən çox olmamaq şərtilə qəbul edilməsinə icazə verilir. Bundan əlavə, hərrac iştirakçıları tərəfindən istiqrazların alınması üçün verilən sifarişlərin həcmi emitent tərəfindən hərraca çıxarılmış istiqrazların həcminin 20 faizdən aşağı olduğu təqdirdə emitent bu sifarişləri qəbul etməyə bilər. Hərrac zamanı dövlət istiqrazlarına tələb təklifi üstələyəcəyi və qiymət emitenti qane edəcəyi halda isə emitent tərəfindən təklif edilən istiqrazların həcmi 50 faizədək artırıla bilər. Hərracda iştirak etməkdə maraqlı olan şəxslər birja üzvü olan investisiya şirkətlərinə müraciət edə bilərlər. Birja üzvlərinin əlaqə vasitələri BFB-nin internet saytının (www.bfb.az) "Üzvlər" bölməsində yerləşdirilib.

## Azərbaycan iqtisadiyyatında artım tempi 3%-ə yaxınlaşıb

***Bu ilin yanvar-iyul aylarında Azərbaycanda 47 262,3 milyon manatlıq və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 2,7 % çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub.***



Bu barədə Dövlət Statistika Komitəsi xəbər verir.

Məlumata görə, son 1 ildə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 3,1 % azalıb, qeyri-neft-qaz sektorunda isə 5,3 % artıb

ÜDM istehsalının 40,3 %-i sənaye, 10,3 %-i ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,3 %-i nəqliyyat və anbar təsərrüfatı, 6,5 %-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,1 %-i tikinti, 1,8 %-i informasiya və rabitə, 1,1 %-i turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 18,5 %-i digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,1 %-ni təşkil edib.

İl ərzində əhalinin hər nəfərinə düşən ÜDM-in dəyəri isə 17,6% artaraq 4 721 manat olub.

Fermerlər bəzi bitkilər üzrə təkrar əkinlərə görə subsidiya ala biləcəklər - SİYAHI

Kəndə Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) fermerlərə müracət edib. Müraciətdə bildirilir ki, subsidiya almaq istəyən fermerlər təkrar əkin barədə bəyanı bu ayın sonuna qədər Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə (EKTİS) daxil etməlidirlər.

Bu il fermerlər 6 bitki üzrə apardıqları təkrar əkinlərə görə subsidiya ala biləcəklər. Fermerlər qarğıdalı, günəbaxan, soya, sorqo, darı, kartof bitkilərinindən birinin və yaxud bir neçəsinin əkinini həyata keçirə bilərlər.

Pambıq, tütün və şəkər çuğunduru bu subsidiya kateqoriyasına aid olmasa da qeyd olunan bitkilərin əkinini aparmış fermerlər subsidiya almaq üçün mütləq əkinlərini EKTİS-ə bəyan etməlidirlər. Bu il torpaq analizi vermiş fermerlərdən təkrar əkin bəyanında bu sənəd tələb olunmayacaq.



## "Əyani təhsildən imtina etməyimiz müzakirə mövzusu deyil" - Fəxrəddin Qoca

***"Bütün təhsil müəssisələrimizdə yeni tədris ili müəyyən edilən vaxtda açılacaq. Əyani təhsildən imtina etməyimiz müzakirə mövzusu ola bilməz".***

Unikal.org xəbər verir ki, bunu Türkiyənin səhiyyə naziri Fahrettin Koca bildirib.

Nazir qeyd edib ki, Elmi Şuranın təklifləri Təhsil Nazirliyi və Ali Təhsil Şurası ilə müzakirə edilərək cəmiyyətə açıqlanacaq.

"Bütün səviyyələrdəki təhsil müəssisələrimiz üz-üzə təhsil verəcək və praktiki məşğələlər fasiləsiz davam edəcək, çünki artıq peyvənd var. Şərtlərdən asılı olmayaraq, tələbələrimizi, şagirdlərimizi və onların ailələrini pandemiya təhlükəsindən qoruyaraq praktiki və əyani təhsilimizə davam edəcəyik.

Ən önəmli işimiz peyvənd olunmayan müəllimlərimizin qalmamasıdır", - deyə F.Koca bildirib.

*Ağarza Elçinoğlu*

## Hindistanda torpaq sürüşməsi zamanı 13 nəfər ölüb

***Hindistanın şimalındakı Ximaçal-Prades ştatında baş vermis torpaq sürüşməsi zamanı 13 nəfər həlak olub.***

"Unikal" xəbər verir ki, bu barədə Təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə yerli idarənin direktoru Sudeş Kumar Moxta bildirib.

"Daha üç meyit axtarış-xilasetmə əməliyyatının yeniləndiyi Ximaçal-Pradeş ştatında, Kinnaur ərazisində, sürüşmə yerində aşkarlanıb, buna görə də ölənlərin sayı artaraq 13 nəfərə çatıb", - idarə rəsmisi tvitterdəki hesabında yazıb.

Daha əvvəl çərşənbə günü NDTV telekanalı 11 nəfərin həlak olması, 30 nəfərin itkin düşməsi barədə məlumat yayıb.

Torpaq sürüşməsi çərşənbə günü gündüz Ximaçal-Pradeşədə, Kinnaur ərazisində olub. Nəticədə bir neçə avtomobil, avtobus və yük maşını uçqun altında qalıb.

Hindistanın baş naziri Narendra Modi mərkəzi hökumətin yerli hakimiyyətə kömək göstərməyə hazır olduğunu deyib.

## Avropada rekord istilər qeydə alındı

***Avqustun 11-də Avropada havanın temperaturunda rekord göstərici qeydə alınıb.***

İtaliyanın Siciliya adasının Sirakuza şəhərində bu gün havanın temperaturu müsbət 48.8 dərəcə selsiyə yüksəlib. Bu, Avropa tarixində rekord isti deməkdir.

Xatırladaq ki, qitədə sonuncu dəfə havanın temperaturunda rekord göstərici 1977-ci ildə 48 dərəcə isti ilə Afinada qeydə alınıb.

# Başıqapazlı general: Ermənistanın yeni müdafiə nazirinin dili süngüsündən uzundur

***İstənilən ali rütbəli zabitin vəzifəyə təyinatı və ya vəzifədən azad edilməsi Ermənistanda müəyyən ajiotaja səbəb olur. Bu həm də İrəvanın məğlub durumu ilə bağlıdır. Bəzi iri dövlətlər tərəfindən dəstəklənməsinə baxmayaraq, Ermənistan ordusu son 100 ildə işğal yoluyla əldə etdiyi "nailiyyətlərin", o cümlədən, son 200 ilin "Böyük Ermənistan" ideyasının külünü havaya sovuran Azərbaycan Əsgərinin qarşısında cəmi 44 gündə diz çökdü.***

Ermənistan ambisiyaları ilə imkanları üst-üstə düşməyən cırtdan ölkədir. Amma təhlükəsizlik məsələlərində ordu sayını Azərbaycana uyğun sayda saxlamaq məcburiyyətindədir. Bu isə son 27 ildə bir dəfə də olsun əməliyyatlar teatrında uğur qazanmayan Ermənistan üçün asan vəzifə deyil. İnsan və maliyyə resursları daim işğalçı ölkənin əsas problemləri olub. Üstəgəl, hər dəfə uğursuzluğa məruz qalanda Ermənistan hakimiyyəti ilk zərbəni 2-ci və 3-cü dərəcəli vəzifələr daşıyan erməni generallarına endirib. Bəzilərini istefaya, bəzilərini isə həbsə göndərməklə siyasi liderlər xalqın tənəsindən qurtulmağa çalışıblar. Horadizdə, Lələtəpədə, Talışda, Gülüstanda, Odundağda, Günnütdə, Babakərdə əraziləri, 44 günlük Vətən Müharibəsində isə ərtaf rayonlarımızı və Qarabağı qoyub qaçan Ermənistan Ordusunun "məğlubedilməzliyi" barədə verilən bəyanatlar ilə imzalanan fərmanlar arasındakı tərs mütənasibliyə toxunmayacağam, bu, başqa bir məqalənin mövzusudur.

Göründüyü kimi, Ermənistanın siyasi maşını özünü ayaqda tutmaq üçün davamlı olaraq generallardan "günah keçisi" kimi istifadə edib. Amma cırtdan Ermənistanın ordusunun general yetişdirmək imkanları sonsuz deyil. Bəzən eyni şəxs bir neçə dəfə vəzifədən atılıb, sonra isə kadr çatışmazlığı səbəbindən yenidən vəzifəyə təyin edilib. Bunlardan biri də Ermənistanın yeni müdafiə naziri Arşak Karapetyandır.

O, ilk dəfə mətbuatda Aprel Döyüşlərinin nəticələrinə görə geniş müzakirə olundu. Aprel Müharibəsi bitəndən az sonra Ermənistan prezidenti Serj Sarkisyan müdafiə nazirinin müavinləri ilə bərabər bir neçə idarə rəisini, o cümlədən, Ermənistan Silahlı Qüvvələri Baş Qərargahının kəşfiyyat idarəsinin rəisi, general-mayor Arşak Karapetyanı da vəzifədən azad etdi. 2016-cı ilin mayın sonunda Arşak ilə yaxın münasibətlərdə olan general Mels Çilingəryan, polkovnik Mqer Papyan və Armen Marqaryan həbs edildilər; Karapetyanın da açılan iki müxtəlif cinayət işindən biri üzrə saxlanılması nəzərdə tutulurdu. Söhbətin alınan texniki kəşfiyyat vasitələrinin aşağı keyfiyyətə malik olmasına baxmayaraq, baha qiymətə rəsmiləşdirilməsindən getdiyi ehtimal olunurdu. Lakin hansısa qüvvə o zaman Arşak Karapetyanı cinayət məsuliyyətindən azad edə bildi.

Bir neçə ay sonra Serj Sarkisyan daxildə vəziyyətin sabitləşdiyindən istifadə edərək, Arşak Karapetyanı Rusiyadakı Ermənistan səfirliyinə hərbi attaşe təyin edi. 2018-ci ildə çevrilişlə hakimiyyətə gələn Nikol Paşinyan həmin ilin dekabrında hərbi attaşe Arşakın 1 mart 2008-ci il hadisələrilə bağlı ifadə verməyə razılaşdığını nəzərə alaraq, onu özünə müşavir təyin etdi. Ardınca isə Paşinyan Karapetyanı Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin birinci müavini təyin etməklə, ordu karyerasına yenidən təkan verdi.

Bu ilin iyulunda baş nazir vəzifəsini icra edən Nikol Paşinyan müdafiə nazirinin müavini Suren Saakyanı vəzifəsindən azad edərək, Arşak Karapetyanı birinci müavin təyin etdi. Təqdimat zamanı çıxış edən erməni general orduda ciddi islahatların aparılacağını bildirdi. Bu çıxışdan sonra artıq Arşak Karapetyanın müdafiə naziri təyin ediləcəyinə şübhə qalmırdı, çünki islahatlar barədə məlumat vermək heç bir halda nazir müavinin səlahiyyətlərinə daxil olan məsələ deyil.

Müharibə zamanı tutduğu vəzifə kifayət qədər yüksək olsa da, səsi çıxmayan general A.Karapetyan nazir vəzifəsinə təyin edilən kimi erməni ictimaiyyətinin qulağına xoş gələ bilən ilk bəyanatını səsləndirib. Avqustun 7-də polkovnik Aleksandr Tsakanyanın 3 -cü ordu korpusuna komandan təyin edilməsi ilə bağlı keçirilən tədbirdə A. Karapetyan "Azərbaycanın Ermənistan sərhədini keçmək cəhdlərinin qarşısının alınmasını" əmr edib. Azərbaycanı "düşmən" adlandıran A.Karapetyan bildirib ki, "Azərbaycan ərazimizə girməyi düşünməməlidir. Bunun üçün korpus komandiri, hərbi hissə komandirləri və bölmə komandirləri bütün vasitələrdən istifadə etmək hüququna malikdirlər. Kəskinləşmə istəmirik, amma ərazimizə nüfuz etməyə çalışsalar, hamınıza düşmənin uğur qazanmaması üçün bütün vasitələrdən istifadə etməyi əmr edirəm" ,- deyə Arşak Karapetyan bildirib.

Bu bəyanata bir neçə bənddən ibarət şərhlə cavab verəcəyəm.

1) A.Karapetyan ilk növbədə 64 gün ərzində orta hesabla 150 kv.km ərazini Azərbaycan Əsgərinin nəzarətinə təslim edən zaman əzilmiş erməni ordusunun rəhbərliyində təmsil olunan generallardan biri olduğunu, o vaxtkı rəhbəri David Tonoyanın "yeni müharibə, yeni ərazilər", Paşinyanın "Artsax Ermənistandır" bəyanatlarının mənəvi və fiziki cəhətdən alçaldılmaları ilə nəticələndiyini nəzərə almalı və sözlərində çox ehtiyatlı olmalıdır.

2) Aprel, Günnüt və Vətən Müharibəsində dabanından qıgılcım çıxan A.Karapetyan indiyə qədər daşıdığı hərbi vəzifələrdə tabeliyində olanlara "düşmənin irəliləməsinə mane olmayın" əmrini niyə vermirdi?!

3) Əslində Arşak Karapetyan Ermənistan ordusuna atəş açmamağı əmr edir, çünki "Ermətan ərazisi" deyə bir anlayışın olmadığını və bu ərzilərin tarixi Azərbaycan torpaqları olduğunu hər kəs bilir.

4) Azərbaycan Ordusu təhlükəsizlik baxımından təhdid yaradan hansı ərazinin nəzarət altına alınmasını vacib hesab edərsə, oranı da nəzarət altına alacaq. Bu proses artıq 11 aydır ki, başlayıb və davam edir. Sülh müqaviləsinə qədər də belə olacaq. Bu proses tarixin yaddaşına qovuşan "Böyük Ermənistan" və "məğlubedilməz erməni ordusu" mifləri̇lə üst-üstə düşmədiyi üçün, Karapetyan hələlik özünü görməzliyə vurur.



5) Arşak Karapetyan "Azərbaycan ərazimizə girməyi düşünməməlidir. Korpus komandiri, hərbi hissə komandirləri və bölmə komandirləri sərhədlərimizi qorumaq üçün bütün vasitələrdən istifadə etmək hüququna malikdirlər" cümləsində "bütün vasitələr" dedikdə hansı silah assortimentini nəzərdə tutur? Görəsən, onların arasında "Hərbi Qənimətlər Parkı"nda olmayan və bu parkın ekspoziyasını zənginləşdirə biləcək vasitələr yer alırmı?

6) Əgər həqiqətən də Arşak Karapetyan "Kəskinləşmə istəmirik" bəyanatında səmimidirsə, o zaman ən qısa zamanda Paşinyanın komandasını sərhədlərin delimitasiyası ilə paralel sülh sazişinə imza atmağa inandırmalıdır. Arşak da daxil olmaqla, erməni generallar Vətən Müharibəsinin 5-ci günündə əməliyyatları dayandırmaq üçün Nikola təsir etməklə çox yaxşı bacardıqlarını göstərmişdilər.

Müharibə məğlub tərəfin siyasi və hərbi rəhbərləri üçün haqlı olaraq böyük fəlakətlər vəd edir. Erməni seçici müharibə istəmədiyi üçün Paşinyana səs verdi, lakin bu, ölkənin güc strukturlarında "günah keçisi" axtarışına son veriləcəyi demək deyil. Ermənistanın güc strukturlarında müharibədən sonrakı dövrdə 15-dən çox general artıq vəzifədən azad edilib. Proses başa çatmayıb. Çıxarılanların arasında məsuliyyətə cəlb olunanlar da var. Hər məsuliyyətə cəlb olunan ardınca bir neçə rəhbər vəzifəlini də sürükləyəcək. Bəlkə o zaman Arşak anlayacaq ki, karyerası boyu bir dəfə də olsun, rəqib üzərində qələbəyə imza atmayan, əksinə, davamlı olaraq məğlubiyyətlə qapazlanan general kimi yüksək vəzifəyə yalnız "geriyə qaçanlardan ən aşağı sürətlisi" olduğundan və Paşinyan tərəfindən sədaqətli kadr çatışmazlığı səbəbindən təyin edilib. Bu isə sərsəm bəyanatlarına görə Azərbaycan Əsgəri tərəfindən cəzalandırılacağı gözlənilən Arşak Karapetyanın xələflərinin aqibətilə üzləşəcəyini və təkrarən "günah keçisi" olacağını istisna etmir.

*Ədalət Verdiyev, hərbi ekspert*

# “Tatamidə hamını parçalaya bilərsən” - İrina Zaretska



***“Olimpiadaya dünya reytinqinin ikincisi kimi lisenziyanı qazandın. Çox həyəcanlanırdım”.***

Apasport.az saytının məlumatına görə, bunu Azərbaycan karateçisi İrina Zaretska deyib. Tokio-2020 Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı bu gün Yaponiyadan Bakıya qayıdıb. O, qarşılanma mərasimində jurnalistlərə açıqlamasında yarış barədə danışıb: “Təsəvvür edə bilməzsiniz ki, öz gücünü biləndə necə qalib gəlmək istəyirsən. Bu da həyəcan yaradırdı. Həyəcanlanma gücümü çox alırdı. Yarımfinal çox ağır və yaddaqalan oldu. Həlledici zərbə ilə 7:2 hesablı qələbə qazandım. Mənə görə həyəcanlanan valideynlərimin, dostlarımın emosiyalarını, necə sevindiklərini gördüm. Finalda taktikam fərqli idi. Əvvəl daha fəal döyüşürdüm. Amma bu dəfə fəal olsaydım, xallar buraxa bilərdim. Bir az alınmadı. Hakim və bəxtsizlik amili oldu. Mümkün olan hər şeyi etdim. Son saniyəyə qədər döyüşdüm. Sonda Avropa Oyunlarındakı öz həlledici zərbəmi də endirdim”.

Zaretska çempionluq üçün 1 saniyənin yetmədiyini qeyd edib: “Amma mənə qızıl medal üçün 1 saniyə çatmadı. Bu medal da mənim üçün çox yaxşıdır. Medal sizin üçün, mənim üçündür. Sizə, Azərbaycana mənə azarkeşlik etdiyiniz üçün təşəkkür edirəm. Finaldan sonra dəstək sözləri yazan, sakitləşdirən hər kəsə minnətdaram. Bunlar ürəyimi oxşayır, göz yaşlarıma səbəb olurdu”.

İrina gələcək planlarından da danışıb: “Hələ gəncəm, karyeramı davam etdirəcəyəm. Qarşıda dünya çempionatı olacaq. Karate yenidən Olimpiada proqramına daxil edilsə, mütləq ora da gedəcəyəm. Baş məşqçimə də demişdim, bu yarışdan sonra heç nədən həyəcanlanmıram, qorxmuram. Bu, ən yüksək səviyyə idi. Bundan sonra elə özünəinam hissi gəlir ki, gedib tatamidə hamını parçalaya bilərsən. Dünya çempionatında daha yaxşı formada olacam. Olimpiya Oyunları artıq arxada qalıb. Daha rahat döyüşmək olacaq”.

# "Müəyyən məsələləri burada deməkistəmirik" - Namiq Abdullayev

***“Ali Baş Komandanımız İlham Əliyevin qayğısı nəticəsində neçə illərdir idmançılarımız həm qızıl, həm gümüş, həm də bürünc medallar qazanır, bayrağımızı yüksəklərə qaldırırlar”.***

Apasport.az saytının məlumatına görə, bunu Tokio-2020 Yay Olimpiya Oyunlarından bu gün qayıdan sərbəst güləş üzrə Azərbaycan millisinin baş məşqçisi Namiq Abdullayev Heydər Əliyev Beynəlxalq Hava Limanında jurnalistlərə açıqlamasında deyib.

Komandamızın Olimpiadadakı çıxışını dəyərləndirən 50 yaşlı mütəxəssis qazanılan 7 medalın uğur olduğunu bildirib: “Tokioda idmançılarımız 7 medal qazandı. O ki qaldı güləşlə bağlı, müəyyən məsələləri burada demək istəmirik. Bununla bağlı açıqlamalar olacaq. Əziyyəti olan hər kəsə təşəkkürümüzü bildiririk. Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, xüsusən də, Azərbaycan Güləş Federasiyasının prezidenti Namiq Əliyev, federasiya nümayəndələri beş il ərzində qayğı göstərib, bizə dayaq olublar”.




Olimpiya çempionumuz koronavirus pandemiyası ilə əlaqədar yarışa ideal vəziyyətdə hazırlaşa bilmədiklərini də vurğulayıb: “Pandemiya dönəmində Nazirlər Kabineti yanında Operativ Qərargaha müraciət olunmuşdu. İdmançılarımız qapalı şəraitdə məşq edə bilmirdilər, çətinliklərimiz var idi. Ancaq bizə icazə verildi, Olimpiadaya lisenziya qazanan idmançılarımız qapalı şəkildə hazırlaşdılar, beynəlxalq turnirlərə, lisenziya xarakterli yarışlara qatıldılar. Tokioda qazanılan 7 medaldan 3-ü güləşin aktivinə yazıldı. Bu, indiki vəziyyətdə uğurdur. Tarixi zəfər qazandığımız Vətən Müharibəsində iştirak edən idmançılarımız da var idi. Bütün bunların da təsiri olub. Qazanılan medallara görə, bütün xalqımızı təbrik edirəm. Bu uğuru qaralamaq olmaz, çünki xalqımız buna sevinir. Unutmayaq ki, bəzi ölkələr Olimpiadada medalsız qaldılar. Azərbaycan millisi Tokio-2020-də 67-ci yeri tutdusa, Ermənistan 69-cu oldu”.

Qeyd edək ki, Azərbaycan millisi Olimpiadada 3 gümüş, 4 bürünc medal qazanıb. Komandamızın heyətində karateçilər İrina Zaretska (+61 kq) ilə Rafael Ağayev (75 kq), sərbəst güləşçi Hacı Əliyev (65 kq) gümüş, cüdoçu İrina Kindzerska (+78 kq), boksçu Alfonso Dominqes (81 kq), yunan-Roma güləşçisi Rafiq Hüseynov (77 kq) və qadın güləşçi Mariya Stadnik (50 kq) bürünc mükafata yiyələnib.

# "Neftçi"nin yarımmüdafiəsindən qorxur - Toni Koskela



***“Düşünürəm ki, səfərdə yaxşı oyun keçirdik və çətinliklərə baxmayaraq, matçı idarə etdik”.***

Apasport.az saytının məlumatına görə, bunu HİK-in baş məşqçisi Toni Koskela Avropa Liqasının III təsnifat mərhələsində “Neftçi” ilə keçiriləcək cavab matçı öncəsi deyib.

Çalışdırıcı Helsinkidəki görüşdə diqqət etməli olduqları məqamlara toxunub: “İndi Finlandiyada çıxış edəcəyimiz üçün mütləq ev sahibi kimi görünmək istəyirik. Daha böyük intensivliklə hərəkət etməyə çalışacağıq. Bakıda rəqib nadir hallarda qapımıza yaxınlaşırdı. Buna görə də yalnız uzaqdan zərbələrə üstünlük verirdilər. Cavab matçında bunları nəzərə almaq və hücum futbolu sərgiləmək lazımdır”.

Koskela “Neftçi”nin güclü tərəfinin orta sahə olduğunu da sözlərinə əlavə edib: “Onların yüksək keyfiyyətə malik və təkbətək epizodlarda təhlükəli olan yarımmüdafiə xətti var. Bəzi dəyişikliklər edə bilərlər. Ancaq çətin ki, heyətdə əhəmiyyətli dərəcədə dəyişiklik olsun. Xüsusən də, Mamadu Kanenin adını vurğulaya bilərəm. İndi ən vacibi yaxşı oyuun keçirməkdir. Hələ qrup mərhələsi barədə düşünmürük”.

Qeyd edək ki, HİK - “Neftçi” matçı Bakı vaxtı ilə saat 20:00-da başlayacaq. Bakıdakı ilk qarşılaşmada 2:2 hesabı qeydə alınıb.

# “Qarabağ” favorit, “Neftçi” şanssızdır - bukmekerlər açıqladı

***Avrokubokların bu gün keçiriləcək oyunlarının əmsalları açıqlanıb.***

Bukmeker kontorları Azərbaycan təmsilçiləri “Neftçi” və “Qarabağ”ın III təsnifat mərhələsində keçirəcəyi cavab matçlarının da favoritlərini müəyyənləşdirib.

“Neftçi” Avropa Liqasında Finlandiyada HİK-lə üz-üzə gələcək. Matçda daha şanslı olan meydan sahiblərinin qələbəsi 1,76, bakılıların uğuru 4,48 əmsaldır. Heç-heçəyə pul qoyuluşu 3,78 ilə qəbul olunur.

Konfrans Liqasının görüşündə AEL-i (Kipr) qəbul edəcək “Qarabağ” isə matçın favoritdir. Bakıda baş tutacaq matçda Ağdam klubunun qələbəsi 1,69, AEL-in uğuru 5,30 əmsaldır. Qarşılaşmada heç-heçəyə 3,52 əmsal verilib.

Qeyd edək ki, hər iki görüş Bakı vaxtı ilə saat 20:00-da başlayacaq.

# “Hamı gördü ki, finalda mənə qarşı haqsızlıq oldu” - Hacı Əliyev

***“Çox sevinirəm ki, Olimpiya Oyunlarının gümüş medalını qazanmışam. Şükürlər olsun ki, medalsız qalmadıq”.***

Bunu Tokio-2020 Yay Oyunlarında gümüş medal qazanan Azərbaycanın sərbəst güləşçisi Hacı Əliyev (65 kq) Heydər Əliyev Beynəlxalq Hava Limanında jurnalistlərə açıqlamasında deyib.

Üçqat dünya və üçqat Avropa çempionu ona dəstək olan insanlara təşəkkürünü bildirib. Rio-2016-da da bürünc mükafata yiyələnən 30 yaşlı güləşçi Tokiodakı Olimpiadanın finalında yaponiyalı Takuto Otoquroya məğlubiyyəti hakimliklə əlaqələndirib: “Bir çox idmançılarımız mükafatsız qaldı. Çox sevinirəm ki, mən medal alanlar sırasında oldum. Allah hamıdan razı olsun. Uğurlarımda əziyyəti olan hər bir kəsə təşəkkür edirəm. Qızıl da qazana bilərdim. Hamı gördü ki, finalda mənə qarşı bir az haqsızlıq oldu”.

Qeyd edək ki, Azərbaycan millisi Olimpiadada 3 gümüş, 4 bürünc medal qazanıb. Komandamızın heyətində Hacı Əliyevlə yanaşı, karateçilər İrina Zaretska (+61 kq) ilə Rafael Ağayev (75 kq) gümüş, cüdoçu İrina Kindzerska (+78 kq), boksçu Alfonso Dominqes (81 kq), yunan-Roma güləşçisi Rafiq Hüseynov (77 kq) və qadın güləşçi Mariya Stadnik (50 kq) bürünc mükafata yiyələnib.